

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

04 mart
2026-cı il,
çərşənbə
№ 041 (7108)
Qiyməti
60 qəpik


# Uğurlu yolumuzun əsas amili - birgə maraqlar və qarşılıqlı fayda prinsipi




Bax səh. 2

## İlham Əliyev: Bizim enerji təhlükəsizliyinə töhfəmiz yalnız öz sərhədlərimizlə, Cənub Qaz Dəhlizi ilə məhdudlaşmır

## Bakı - Moskva münasibətləri...

Cənubi Qafqaz regionun siyasi-iqtisadi tənzimləyicisi, bölgənin sabitləşdirici faktoru olan Azərbaycanın xarici siyasət kursu yaxın əməkdaşlıq, milli maraqlara söykənən tərəfdaşlıq kontekstinə əsaslanır. Ölkəmizin digər dövlətlərlə, xüsusilə region dövlətləri ilə münasibətdə tutduğu mövqe açıqdır - biz, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və beynəlxalq hüquq müstəvisində əməkdaşlığa hər zaman hazırıq. Azərbaycan hər zaman bəyan edir ki, biz bərabərhüquqlu səviyyədə əlaqələrin qurulmasında maraqlıyıq - rəsmi Bakı bölgə dövlətləri ilə yaxın qonşuluq əlaqələrinin gücləndirilməsinə, strateji əməkdaşlığın ən üst səviyyəyə qaldırılmasına və geniş əməkdaşlıq platformalarının qurulmasına həssaslıqla yanaşıb.

Azərbaycan ilə Rusiya arasındakı münasibətlər də daima işgüzar xarakteri ilə seçilir. Uzun illərdir ki, iqtisadi platformalarda yaxın əməkdaşlarımızdan biri sayılan Moskva ilə əlaqələrimizin mühüm tarixi var.

Qeyd edək ki, martın 2-də Prezident İlham Əliyev Rusiya Federasiyası Hökuməti Sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul edib. Görüş əsnasında Rusiya tərəfi regionda mürəkkəb və gərgin şərait fonunda Rusiya vətəndaşlarının İran İslam Respublikasından təxliyəsində operativ köməyə görə Azərbaycan rəhbərliyinə səmimi təşəkkürünü bildirib.

Bəlli olduğu kimi, Yaxın Şərqdə vəziyyət gərginləşib. Hazırki vəziyyətdə Azərbaycan bütün dövlətlərin vətəndaşlarının daha rahat və təhlükəsiz təxliyəsi üçün şərait yaradır...

Bax səh. 3

## Milli Məclisin iclasında...



Bax səh. 3

## “Ailə dəyərləri bu gün”

Bax səh. 4

## İpoteka kreditləri üçün müraciətlər başlayır

Bax səh. 5

## Ağdərə toqquşması: Gerçəkdə nə baş vermişdi?

Tarix unudulmur və illər ötdükcə keçmişdə yaşanan hadisələrin mahiyyəti, gerçək səbəbləri daha aydın dərk olunur. Bu baxımdan təxminən 30 il davam edən keçmiş Dağlıq Qarabağ münaqişəsi dönəmində baş verənlər də istisna deyil. Tarixin bu günündə - 4 mart 2008-ci ildə ermənilər Ağdərə toqquşmasına rəvac veriblər. Yaddaşlarda həm də Tərtər hərbi təxribatı adı ilə qalan həmin hadisələrdən bizi artıq 18 il ayırır.

Azərbaycanla Ermənistan arasında 1994-cü il mayın 8-də atəşkəsə dair “Bişkek protokolu” imzalanıb və mayın 12-dən etibarən həmin sənədin qüvvəyə minməsi təmin edilib. “Bişkek protokolu” özündə keçmiş təmas xətti boyunca hərbi əməliyyatların dayandırılmasını ehtiva edirdi. Əsaslandırılırdı ki, atəşkəs rejimininn gözlənilməsi gərginliyin artmasının qarşısını alacaq və münaqişənin danışıqlar yolu ilə həllinə şərait yaradaqcaq.

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində Ermənistanın havadarlarının dəstəyi ilə başladığı işğalçılıq müharibəsində torpaq itkilərinə məruz qalan Azərbaycanın əsas məqsədi ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi idi. Buna görə də ölkəmiz atəşkəs rejiminə əməl etməklə sülh danışıqlarında yüksək fəallıq ortaya qoyurdu. Azərbaycan hər vəchlə çalışırdı ki, danışıqlar daha intensiv şəkildə aparılsın və ədalətli nəticələr əldə olunsun.

Lakin Ermənistanın yanaşması...

Bax səh. 3




## Yaxın Şərqdə müharibənin miqyası böyüyür

Bax səh. 6




## Qlobal iqtisadiyyat üçün təşviş

Bax səh. 5



# Avropa Komissiyasının enerji və mənzil siyasəti üzrə komissarı İlham Əliyevin qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında iştirak edən Avropa Komissiyasının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Dan Yorgensen dövlətimizin başçısının Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarının açılışındakı çıxışının onlarda dərin təəssürat hissi yaratdığını dedi.

Dan Yorgensen bugünkü tədbirin çox mühüm əhəmiyyət daşıdığını qeyd edərək, ölkəmizlə tərəfdaşlığın onlar üçün önəm kəsb etdiyini bildirdi və onu genişləndirməkdə maraqlı olduqlarını vurğuladı. O, həyata keçirilən əməkdaşlığa görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın və Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosun ötən il ölkəmizə səfərlərinə toxunaraq, heyətlərimizin fəal işləməsini enerji və bağlılıq məsələlərində əməkdaşlığı dərinləşdirmək üçün hər iki tərəfdə olan iradənin göstəricisi kimi qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanın, xüsusən hazırkı dövrdə Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunuldu, enerji sahəsində ölkəmizin Avropa bazarında ixrac coğrafiyasının genişləndirilməsi və təbii qaz, yaşıl enerji ilə bağlı əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olundu.

# Uğurlu yolumuzun əsas amili - birgə maraqlar və qarşılıqlı fayda prinsipi








## İlham Əliyev: Bizim enerji təhlükəsizliyinə töhfəmiz yalnız öz sərhədlərimizlə, Cənub Qaz Dəhlizi ilə məhdudlaşmır

Martın 3-də Bakı Konqres Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov dedi:

- Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Hörmətli Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensen.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Mən sizi Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında salamlayıram. Bizim bu toplantımız uğurlu işimizdə bərpaolunan enerjinin tarazlı şəkildə inkişaf etdirilməsi və enerji bağlantılarının regional səviyyədə daha da şaxələndirilməsində göstərdiyimiz səylərin mühüm mərhələsidir.

Mən öz dərin təşəkkürümü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ifadə edirəm ki, O, bu uğurun arxasında dayanan əsas şəxsdir və bu işlərə rəhbərlik etmişdir. İndi isə mən böyük məmnunluq hissi ilə əsas çıxış üçün sözü verirəm cənab Prezidentə.

***

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Xanımlar və cənablar, sabahınız xeyir.

İlk növbədə, bütün qonaqlarımızı salamlayıram. Cənab komissarı xüsusi salamlamaq istəyirəm, çünki o, indi gəlib və istirahətə ehtiyacı var. Ancaq buna baxmayaraq, o, bizimlə birlikdədir. Biz onun Brüsseldə iş qrafikinin sıx olmasına baxmayaraq, bu gün bu vacib tədbirdə iştirak etməsini yüksək qiymətləndiririk. Sizin iştirakınız Azərbaycanla Avropa təsisatları arasında yalnız enerji sahəsi ilə məhdudlaşmayan güclü tərəfdaşlığı bir daha nümayiş etdirir.

Hər zaman olduğu kimi, biz Məşvərət Şurasının illik iclasında ötən iclasdan bəri görülmüş işləri nəzərdən keçirir, enerji təhlükəsizliyi və dayanıqlı enerji təchizatı sahələrində əməkdaşlığımızın və tərəfdaşlığımızın gücləndirilməsi ilə bağlı gələcək birgə addımlarımızı planlaşdırırıq.

Bu təşəbbüsün davamlılığını nümayiş etdirməsindən artıq on ildən çox vaxt keçir və 12 il əvvəl bu təşəbbüsə başladığımız dövrlə müqayisədə birlikdə - məhz birlikdə toplaşmağın və enerji təhlükəsizliyinə dair mühüm məsələləri müzakirə yolu ilə həll etməyin nə dərəcədə vacib olduğunu indi daha aydın şəkildə anlayırıq.

Xüsusilə son 12 ilə nəzər saldıqda müxtəlif ssenarilərin, çətinliklərin, mürəkkəbliklərin və problemlərin şahidi oluruq. Lakin bütün bu çətinliklərə və regionumuzda yaşanan olduqca ağır dövrlərə baxmayaraq, Azərbaycan və tərəfdaşları tərəfindən bir sıra ölkələrin enerji təhlükəsizliyinin təmin olunması həqiqətən də gündəlik həyatımızda hiss etdiyimiz reallığa çevrilmişdir. Ötən il Bakıda sonuncu görüşümüzdən bəri görülən işlərə nəzər yetirdikdə yenə də irəliləyişin şahidi oluruq. Hər dəfə biz məhz irəliləyişdən danışırıq.

Sonuncu dəfə bu auditoriya qarşısında çıxış edərkən bildirmişdim ki, biz 12 ölkəyə qaz tədarük edirik. Hazırda isə Azərbaycan qazının istehlakçısı olan ölkələrin sayı 16-ya çatıb. Bu göstərici üzrə Azərbaycan boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına əsasən dünyada birinci yerdədir.

Sonuncu dəfə çıxışım zamanı qaz təchizatının coğrafiyasının genişləndirilməsi ilə bağlı planlarımıza toxunmuşdum. Gördüyünüz kimi, bu planlar artıq reallaşdırılıb. Hesab edirəm ki, digər mühüm hadisə qaz təchizatımızın artıq Avropa hüdudlarından kənardakı istiqamətlərə də çatması olmuşdur. İlk dəfə olaraq Suriyaya qaz tədarükünə başlamışıq ki, bu da Suriya xalqına mövcud olan kəskin elektrik enerjisi qıtlığının azaldılmasında yardım göstərmək məqsədi daşıyır.

Beləliklə, Suriyaya 1,5 milyard kubmetr həcmində Azərbaycan qazının tədarükü vasitəsilə biz əhalinin daha yaxşı qorunmasına, biznes fəaliyyəti üçün daha geniş imkanların yaranmasına və müəssisələrin normal fəaliyyətinin təmin edilməsinə töhfə verdik. Çünki hamıya yaxşı məlumdur ki, elektrik enerjisi olmadan heç bir inkişaf əldə etmək mümkün deyil. Bu, həm Suriya, həm region, həm də Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edirdi. Çünki qaz təchizatının şaxələndirilməsi hər bir ölkə kimi, bizim üçün də xüsusi əhəmiyyət daşıyır. Biz qaz qəbul edən ölkələrin şaxələndirmə ilə bağlı üzləşdikləri çətinlikləri anlayırıq. Lakin, eyni zamanda, istehsalçı ölkələr üçün də şaxələndirmə mühüm amildir.

Yenə də görürük ki, istehsalçı Azərbaycan, tranzit ölkələr və istehlakçılar arasında əməkdaşlıqda müsbət dinamika müşahidə olunur. Hesab edirəm ki, məhz bu birlik, birgə maraqlar və qarşılıqlı fayda prinsipi on ildən artıq davam edən uğurlu yolumuzun əsas amilidir.

Planlarımıza gəldikdə, bəli, biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün Cənub Qaz Dəhlizi artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır.

Cari ildə "Azəri-Çıraq-Günəşli" yatağının dərin qaz laylarından hasilatın başlanmasını gözləyirik. Hasilatın ötən il başlanacağı gözlənilirdi, lakin bu, baş vermədi. Bununla belə, hasilatın məhz cari ildə başlanacağına əminik. İki-üç il ərzində "Abşeron" yatağının tammiqyaslı işlənmə mərhələsinin başlanmasını gözləyirik ki, bu da "Abşeron"dan qaz hasilatını üç dəfə artıracaq. Eyni zamanda, "Ümid" yatağının ikinci mərhələsi üzrə qaz hasilatına başlanması gözlənilir.

Təbii qazın əsas mənbəyi olan "Şahdəniz" yatağımızla bağlı olaraq deyə bilərəm ki, 2028-ci ildə "Şahdəniz"in yeni mərhələsi üzrə hasilatın başlanmasını gözləyirik. Qeyd olunan bütün hasilat profilləri maksimum istehsal səviyyəsində 10-15 milyard kubmetr həcmində əlavə qaz əldə etməyə imkan verəcək. Daha əvvəl qeyd etdiyim kimi, bunun üçün yeni bazarlara, mövcud boru kəməri sisteminin genişləndirilməsinə ehtiyac var və əlbəttə, qazpaylama şəbəkəmizin şaxələndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi zəruridir.

Artıq bir neçə ildir ki, Məşvərət Şurası çərçivəsində müzakirə olunan məsələlərin bir hissəsi də yaşıl gündəlikdir və bu istiqamətdə də müsbət nəticələr barədə məlumat verə bilərik. Cari ilin yanvarında regionda indiyədək ən böyük külək elektrik stansiyasının - 240 meqavat gücündə obyektin açılışı olub. Layihə "ACWA Power" tərəfindən maliyyələşdirilib və həyata keçirilib.

Bu, bizim artıq malik olduğumuz potensiala əlavə edilən yeni yaşıl enerji mənbəyidir. 2023-cü ildə "Masdar" şirkəti 230 meqavat gücündə Günəş elektrik stansiyası inşa edib. Bir neçə layihə artıq icra mərhələsindədir və gələcək illərdə biz alternativ enerji mənbələri ilə işləyən yeni elektrik stansiyalarının açılışını gözləyirik. Burada bizdə xarici sərmayədarlardan və yerli şirkətlərdən ibarət müsbət kombinasiya mövcuddur. Yerli şirkətlər dedikdə, əlbəttə ki, SOCAR-ı nəzərdə tuturam. Lakin təkcə SOCAR yox, həmçinin özəl şirkətlər alternativ enerji mənbələrinə investisiya yatırmağa başlayıb, çünki burada böyük potensial və bazarda tələbat var.

Artıq ötürücü xətlər mövcuddur, lakin daha çox ötürücü xətlər olacaq. Biz bu məsələ üzərində işləməliyik. Biz enerji kabelləri - Azərbaycandan Avropaya Qara dənizin dibi ilə gedən enerji kabeli və Mərkəzi Asiyadan Azərbaycana gələn enerji kabeli üzərində birlikdə işləməliyik. Hər iki müqavilə imzalanıb və bir layihədə iqtisadi-texniki əsaslandırma tamamlanmaq üzrədir, digər layihədə isə bu iş davam edir.

Bütün bu layihələrin reallaşacağı zaman onlar çox dayanıqlı olacaq və deyərdim ki, bir çox ölkələrin enerji dəhlizləri üçün ekzistensial əhəmiyyət kəsb edəcək. Alternativ enerji ilə bağlı planlarımız artıq imzalanmış müqavilələrə əsaslanır.

Vurğulamaq istəyirəm ki, bunlar anlaşma memorandumları deyil, müqavilələrdir, beləliklə, tərəflərin müqavilə öhdəlikləri var. Biz 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6-8 giqavat elektrik enerjisi əldə etməyi gözləyirik. Əlbəttə ki, bu, böyük aktivdir. Beləliklə, biz onu ixrac etməliyik. Hazırda elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qazı əvəzləmək məqsədilə daxili tələbat üçün istifadə etməliyik. Kommunikasiya sektoru, süni intellekt, data mərkəzləri ilə bağlı planlarımız da daxil olmaqla artan iqtisadiyyat və sənaye üçün şəraiti təmin etməliyik.

Bütün bunlar mənim və ABŞ-nin Vitse-prezidenti tərəfindən imzalanan Amerika Birləşmiş Ştatları və Azərbaycan arasında Strateji Tərəfdaşlıq Xartiyasından sonra artıq üzərində iş gedən layihələrdir. Bu Xartiya bir çox sahələri, o cümlədən süni intellekt, enerji, bağlılıq və bir çox digər məsələləri əhatə edir.

Dünyanın ən qüdrətli dövləti Amerika Birləşmiş Ştatlarının strateji tərəfdaşımız kimi çıxış etməsini nəzərə alaraq bizim planlarımızın gerçəkləşməsi tamamilə real görünür. Biz hidroelektrik stansiyalarına sərmayə yatırırıq. Bu layihələr Ermənistanın işğalından azad edilmiş ərazilərdə icra olunur. Hələ ki, 307 meqavat gücündə hidroelektrik stansiyalar artıq sistemimizə qoşulub. Planlarımız bunu 2-3 ilə təqribən ikiqat artırmaqdır. Bu, bizə əlavə potensial və ucuz enerji verəcək.

Beləliklə, hidroenerji, Günəş enerjisi, külək enerjisi, potensial olaraq termal enerji, - biz hazırda bu məsələni araşdırırıq, - qaz və bütün mümkün kombinasiyalar nəzərdən keçirilir və işin məhz belə aparılması zəruridir. Müzakirə etdiyimiz məsələyə qayıdaraq qeyd edim ki, hətta COP29 çərçivəsində - bu iqlim konfransına ev sahibliyi etdiyimiz zaman da bildirmişdim, baxmayaraq ki, o dövrdəki tendensiya ilə tam uyğun olmadığını anlayırdım, faydalı qazıntı yanacaq növlərini nəzərə almamaq mümkün deyil. Əgər siz qazıntı yanacağını nəzərə almırsınızsa, bu o deməkdir ki, siz xəyallarla yaşayırsınız.

Biz hamımız planetin təhlükəsiz və təmiz olmasını istəyirik. Heç birimiz iqlim dəyişikliyinin fəsadlarını görmək istəmirik. Yeri gəlmişkən, burada Xəzər dənizinin ildən-ilə dayazlaşdığını görə bilərsiniz. Lakin, eyni zamanda, biz bu məsələyə ideologiya nöqteyi-nəzərindən deyil, praqmatizm, realizm nöqteyi-nəzərindən yanaşmalıyıq. Beləliklə, qazıntı yanacağının və bərpaolunan enerji mənbələrinin vəhdəti, xüsusilə də Azərbaycan kimi ölkələrin səylərinin yüksək qiymətləndirilməsi, - ölkənin öz qaz ehtiyatlarının 100 il üçün kifayət edə biləcəyi halda bərpaolunan enerji mənbələrinə milyardlarla sərmayə yatırması, - hesab edirəm ki, iş məhz belə aparılmalıdır. Əminəm ki, bütün bu məsələlər bugünkü tədbirdə müzakirə olunacaq və biz yaxşı həll yolları tapacağıq.

Həmçinin vurğulamaq istərdim ki, Azərbaycan enerji ehtiyatlarının etibarlı tranzit ölkəsi rolunu da oynayır. Biz Qazaxıstan, Türkmənistan üçün neftin mühüm tranzitini təmin edirik və bizim sistemimiz vasitəsilə nəql olunan neftin həcmi ildən-ilə artır. Biz Xəzərin şərq sahillərindən daha çox neft qəbul etmək iqtidarındayıq və bunun üçün infrastruktura malikik.

Avropa enerji bazarında səylərimizlə bağlı məsələlərə gəlincə, düşünürəm auditoriyanın bilməyi vacib olardı ki, biz bu yaxınlarda Türkiyədə ən böyük elektrik stansiyalarından birini əldə etmişik - 870 meqavat gücündə. Ötən ay Serbiya ilə 500 meqavatlıq elektrik stansiyasının inşasına dair müqavilə imzalandı. Beləliklə, bizim enerji təhlükəsizliyinə töhfəmiz yalnız öz sərhədlərimizlə, Cənub Qaz Dəhlizi ilə məhdudlaşmır.

Həmçinin bizim üçün mühüm nailiyyətlər, mühüm amillər arasında İtaliyada ümumi emal qabiliyyəti 10 milyon ton olan 2 neftayırma müəssisəsinin əldə olunması var. Əgər Egey dənizinin Türkiyə sahillərində artıq sahib olduğumuz 12 milyon tonluq neftayırma müəssisəsini də əlavə etsək, ümumilikdə Aralıq və Egey dənizlərində 22 milyon ton neftayırma potensialımız olacaq ki, bu da öz növbəsində sözsüz ki, neft məhsullarının davamlı təchizatını təmin etməyə kömək edəcək və minlərlə yanacaqdoldurma stansiyası bu razılaşmanın bir hissəsidir.

Sizin vaxtınızı çox almaq istəmirəm. Bilirəm ki, çox məşğul olacaqsınız, sadəcə başa düşülməsi mühüm olan əsas məqamları, planlarımızı, görülmüş işləri və görülməsi planlaşdırılan işləri vurğulamaq istədim. Əminəm ki, iclas hər zaman olduğu kimi səmərəli, konstruktiv və nəticəyönümlü olacaq.

Təşəkkür edirəm.

***

Qeyd edək ki, toplantıya Azərbaycan və Avropa daxil olmaqla 27 ölkə, 11 beynəlxalq maliyyə institutu və təşkilat, həmçinin 49 enerji şirkəti qatılıb. Tədbirdə nazirlər, nazir müavinləri və digər yüksəksəviyyəli nümayəndələr iştirak edirlər.

Açılış sessiyasından sonra toplantı Nazirlər sessiyası, "Cənub Qaz Dəhlizi sessiyası: Cənub Qaz Dəhlizində davamlı uğur və yeni inkişaf mərhələsi" və "Yaşıl enerji layihələri" üzrə plenar sessiyalarla davam edir.

Məşvərət Şurası çərçivəsində Azərbaycan-Avropa İttifaqı Yaşıl Bağlantı üzrə İnvestisiya dəyirmi masası keçiriləcək.

Tədbirin sonunda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarının yekunlarına dair mətbuat konfransı təşkil olunacaq.

Xatırladaq ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlər toplantısı 2015-ci ilin fevral ayından keçirilir.

# Bakı - Moskva münasibətləri...

## Azərbaycan açıq, bərabərhüquqlu və qarşılıqlı marağa əsaslanan əlaqələrin inkişafında maraqlıdır

Cənubi Qafqaz regionun siyasi-iqtisadi tənzimləyicisi, bölgənin sabitləşdirici faktoru olan Azərbaycanın xarici siyasət kursu yaxın əməkdaşlıq, milli maraqlara söykənən tərəfdaşlıq kontekstinə əsaslanır. Ölkəmizin digər dövlətlərlə, xüsusilə region dövlətləri ilə münasibətdə tutduğu mövqe açıqdır - biz, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və beynəlxalq hüquq müstəvisində əməkdaşlığa hər zaman hazırıq. Azərbaycan hər zaman bəyan edir ki, biz bərabərhüquqlu səviyyədə əlaqələrin qurulmasında maraqlıyıq - rəsmi Bakı bölgə dövlətləri ilə yaxın qonşuluq əlaqələrinin gücləndirilməsinə, strateji əməkdaşlığın ən üst səviyyəyə qaldırılmasına və geniş əməkdaşlıq platformalarının qurulmasına həssaslıqla yanaşıb.

Azərbaycan ilə Rusiya arasındakı münasibətlər də daima işgüzar xarakteri ilə seçilir. Uzun illərdir ki, iqtisadi platformalarda yaxın əməkdaşlarımızdan biri sayılan Moskva ilə əlaqələrimizin mühüm tarixi var.

**Bakı Rusiya vətəndaşlarının da təxliyyəsini təmin edir...**

Qeyd edək ki, martın 2-də Prezident İlham Əliyev Rusiya Federasiyası Hökuməti Sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul edib. Görüş əsnasında Rusiya tərəfi regionda mürəkkəb və gərgin şərait fonunda Rusiya vətəndaşlarının İran İslam Respublikasından təxliyəsində operativ köməyə görə Azərbaycan rəhbərliyinə səmimi təşəkkürünü bildirib.

Bəlli olduğu kimi, Yaxın Şərqdə vəziyyət gərginləşib. Hazırkı vəziyyətdə Azərbaycan bütün dövlətlərin vətəndaşlarının daha rahat və təhlükəsiz təxliyyəsi üçün şərait yaradır. O cümlədən Rusiya vətəndaşlarının da İrandan təxliyyəsi üçün addımlar atılır. Martın 2-də Rusiya Federasiyası vətəndaşlarının növbəti qrupunun İrandan Azərbaycana keçidi təmin edilib. Müvafiq prosedurlardan sonra 15-ə yaxın Rusiya vətəndaşı "Astara" dövlət sərhədindən buraxılış məntəqəsindən təxliyə edilərək təhlükəsiz şəkildə ölkə ərazisinə daxil olub. Qeyd edək ki, martın 1-də Rusiyanın Azərbaycandakı səfirliyinin yaydığı məlumatda bildirilirdi ki, İrandan Azərbaycan vasitəsilə təxliyə olunmalı şəxslərin siyahısında 500 Rusiya vətəndaşı var. "Rusiyanın Azərbaycandakı səfirliyi Astara buraxılış məntəqəsi vasitəsilə İrandan təxliyə olunan Rusiya vətəndaşlarına yardım göstərir. Hazırda Azərbaycan vasitəsilə təxliyə siyahısında artıq təxminən 500 həmyerlimiz qeydə alınıb", - diplomatik nümayəndəliyin bəyanatında deyilir.

Ümumiyyətlə, fevralın 28-i saat 08:00-dan martın 3-ü saat 10:00-dək İran İslam Respublikasından Azərbaycana ümumilikdə 615 nəfər təxliyə edilib. Təxliyə olunanların 157-i Azərbaycan vətəndaşıdır. Bundan başqa, 150 Çin, 127 Rusiya, 66 Pakistan, 52 Tacikistan, 18 Səudiyyə Ərəbistanı, 7 Gürcüstan, 6 BƏƏ, 4 İordaniya, 3 Qətər, 3 Banqladeş, 2 nəfər Filippin, 2 Nepal, 2 Qazaxıstan, 2 Fransa, 2 Özbəkistan vətəndaşları, eyni zamanda, Türkiyə, İtaliya, Polşa, Tunis, Livan, Hindistan və Braziliyadan hər biri 1 nəfər olmaqla xarici vətəndaşlar təxliyə edilib.

**İkitərəfli komissiyanın fəaliyyəti...**

Görüşdə, həmçinin Azərbaycan-Rusiya münasibətlərinin gündəliyi ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb. Qeyd edək ki, iki ölkə arasında əməkdaşlıq çərçivəsi genişdir. 2025-ci ildə Azərbaycanla Rusiya arasında ticarət əməliyyatlarının həcmi 4,920 milyard ABŞ dolları təşkil edib. Bu, 2024-cü ildəki göstərici ilə müqayisədə 120,4 milyon ABŞ dolları və ya 2,5 faiz çoxdur. Hesabat dövründə Rusiya ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 10,08 faizi həcmində olub. Bununla da Rusiya hesabat dövrü ərzində Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında 3-cü pillədə qərarlaşıb.

İki ölkə arasında iqtisadi və hökumətlərarası komissiyalar fəaliyyət göstərir - dövlətlər arasında ticarət, sənaye, nəqliyyat və su ehtiyatlarının idarə olunması kimi məsələlər müzakirə edilir. Bu görüşlərdə həmsədrlər iqtisadi əməkdaşlığın dərinləşdirilməsi və regional layihələri dəyərləndirirlər.

Bu arada martın 2-də Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının həmsədrləri arasında görüş olub. Görüşdə Rusiya və Azərbaycan arasında iqtisadi, sənaye, enerji, nəqliyyat-logistika və aqrar sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi və gündəlikdə olan digər aktual məsələlər müzakirə edilib.

Tərəflər ticarət dövriyyəsinin davamlı artımını məmnunluqla qeyd ediblər. Orta və uzunmüddətli perspektivə hesablanmış birgə investisiya layihələrinin həyata keçirilməsi üçün geniş imkanların olduğu vurğulanıb. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı ilə bağlı məsələlər, xüsusən də onun buraxılış qabiliyyətinin artırılması və nəqliyyat-logistika infrastrukturunun təkmilləşdirilməsi ayrıca nəzərdən keçirilib. Görüşdə tərəflər cari ilin



aprel ayında Azərbaycan Respublikasında İqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasının keçirilməsi barədə razılığa gəliblər.

**Praktik addımlar atılacaq**

Dövlət başçısı Aleksey Overçuku qəbul edərkən söhbət zamanı qeyd edilib ki, Azərbaycan və Rusiya liderlərinin 2025-ci il oktyabrın 9-da Düşənbədə keçirilən görüşündə əldə etdikləri razılaşmalara uyğun olaraq, tərəflər 2024-cü il dekabrın 25-də "AZAL" təyyarəsinin qəzaya uğraması nəticəsində yaranan problemlərin həlli üzrə yaxın vaxtlarda kompleks praktik addımlar atacaqlar.

Xatırladaq ki, 2024-cü ilin dekabrın 25-də "Azərbaycan Hava Yolları"nın J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi Aktau şəhərinin yaxınlığında qəzaya uğrayıb. Təyyarədə olan 67 nəfərdən 38-i həlak olub, 29 nəfər sağ qalıb. Təyyarə Rusiya Hava Hücumundan Müdafiə Qüvvələri tərəfindən Qroznı üzərində vurulub.

Sirr deyil ki, baş verən təyyarə qəzası münasibətlərdə müəyyən fərqli məcra formalaşdırmışdı - baş verənlərdən sonra Azərbaycan özünün haqlı mövqeyini ifadə etmişdi - ölkəmiz istəyini tam şəkildə beynəlxalq konvensiyalara əsaslanaraq və şəffaf şəkildə dilə gətirmişdi: bu işdə məsuliyyətin, ədalətli istintaqın, günahkarların cəzalandırılmasının və zərər çəkənlərə kompensasiya ödənilməsinin vacibliyi ön plana çəkilmişdi. Qeyd edək ki, Rusiya Azərbaycandan bununla bağlı rəsmi üzr istəyib. İndiki mərhələdə yaranan problemlərin həlli üzrə praktik addımların atılması ilə bağlı razılaşma olduqca vacibdir - Bakı məsələnin hüquqi və ədalətli şəkildə həllini mütləq şəkildə önə çəkir.

Yeri gəlmişkən, Qazaxıstanın Nəqliyyat Nazirliyinin son məlumatında bildirilib ki, AZAL təyyarəsinin qəzaya uğraması ilə bağlı yaradılmış istintaq komissiyası araşdırmanın mümkün qədər tez başa çatdırılması üçün maksimum səy göstərəcək. "İstintaqın başa çatması üçün dəqiq son tarix hələ müəyyən edilməyib, lakin komissiya araşdırmanı mümkün qədər tez başa çatdırmaq üçün əlindən gələni edir", - deyə nazirlik qeyd edib.

**"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı...**

Görüşdə, həmçinin Azərbaycan ilə Rusiya arasında qarşılıqlı faydalı iqtisadi-ticari, investisiya, sənaye və nəqliyyat-logistika əməkdaşlığının gələcəkdə daha da inkişaf etdirilməsinə dair ortaq niyyətə diqqət yetirilib, regionda nəqliyyat əlaqələrinin inkişafı perspektivləri müzakirə edilib. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə işləri davam etdirmək üçün ortaq niyyət təsdiqlənib. Söhbət əsnasında bir sıra humanitar məsələlər də müzakirə edilib.

Qeyd edək ki, Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafı iki dövlət arasındakı münasibətlərdə xüsusi yerə malikdir. Bu dəhlizin potensialının genişləndirilməsi və bütövlükdə həm dəmir yolu, həm də avtomobil yolları vasitəsilə yükdaşımaların həcminin bu marşrut boyunca artması iqtisadi-ticari münasibətlərə yeni ruh qazandırıb. Azərbaycanın da iştirakçısı olduğu Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında razılaşma 2000-ci il sentyabrın 12-də imzalanıb. Razılaşma 2002-ci il mayın 21-dən qüvvəyə minib. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Körfəz ölkələri və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaratmaq imkanına malikdir.

Ümumiyyətlə, bu dəhliz hər zaman olduqca strateji bir layihə kimi dəyərləndirilib. Nəzərə alınmalıdır ki, bu dəhliz də Azərbaycandan keçir və ölkəmizin mühüm nəqliyyat qovşağı kimi cəlbediciliyini artırır. Diqqət yetirsək görərik ki, mürəkkəb regionda geostrateji qütblər arasında münasibətlərin daha da kəskinləşdiyi bir vaxtda Azərbaycan məhz burada körpü rolunu oynamaqla özünün milli maraqlarını təmin edir. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi istiqamətində çox böyük həcmdə yük daşımaları var. Bu yük daşımaları, qısa zaman kəsiyində təyinat nöqtəsinə çatdırıla bilir. Xüsusi vurğulanmalıdır ki, Azərbaycan bu layihəyə qoşulduqdan sonra Prezident İlham Əliyevin irəli sürdüyü təkliflər səmərəli və cəlbedici oldu. Məhz bu səmərəlilik ondan ibarətdir ki, yüklərin daşınması xərci azalır və çatdırılması vaxtı qısalır.

***P.İSMAYILOV***



# Milli Məclisin iclasında...

## Azərbaycanın insan hüquqları üzrə müvəkkilinin illik məruzəsi dinlənilib

***Nardar BAYRAMLI***

Martın 3-də Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyinə 8 məsələnin daxil edildiyini bildirib.

Əvvəlcə Azərbaycanın insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi dinlənilib. Məruzəni ombudsman Səbinə Əliyeva təqdim edib. O bildirib ki, ötən il ombudsman Konstitusiya Qanunu ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində insan hüquq və azadlıqlarının müdafiəsi, hüquq pozuntularının qarşısının alınması, habelə hüquq mədəniyyətinin inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi çoxşaxəli fəaliyyətini dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, media subyektləri və beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində davam etdirib. S.Əliyevanın sözlərinə görə, 2025-ci ildə Ombudsmanın ünvanına 42 mindən çox müraciət daxil olub. 7/24 rejimində fəaliyyət göstərən "916" Çağrı Mərkəzi tərəfindən 14 min 718 zəng qəbul edilib. İl ərzində Ombudsman, onun Aparatı və regional mərkəzləri tərəfindən ümumilikdə 9 mindən çox şəxs qəbul edilib.

Ombudsman onu da qeyd edib ki, son illər informasiya texnologiyalarının sürətlə inkişafı, xüsusən də süni intellektin bütün sahələr üzrə geniş tətbiqi informasiya əldə etmək hüququnun reallaşdırılmasına əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Bu hal xüsusən fərdi məlumatların, habelə qanunla əldə olunmasına məhdudiyyət qoyulan digər məlumatların mühafizəsi ilə bağlı hüquqi tənzimləmələrin təkmilləşdirilməsini və yeni təhlükəsizlik mexanizmlərinin tətbiqini zəruri edir. O deyib ki, qeyd olunanları nəzərə alaraq, bu sahədə prioritet istiqamətlərin müəyyən edilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, rəqəmsal texnologiyalardan, süni intellektdən düzgün istifadə və nəzarət tədbirlərinin gücləndirilməsi, rəqəmsal savadlılıq və məlumat təhlükəsizliyi mədəniyyətinin inkişaf etdirilməsi üzrə maarifləndirici proqramların həyata keçirilməsi olduqca əhəmiyyətlidir. "İnformasiya əldə etmək hüququnun daha səmərəli təmin edilməsi məqsədilə "İnformasiya əldə etmək haqqında" Qanunda fiziki şəxslərə özləri barədə fərdi məlumatların təbii inhisar subyektlərindən informasiya sorğusu əsasında əldə etmək imkanını məhdudlaşdıran normaya müvafiq dəyişiklər edilməsi ilə həmin məhdudiyyətin aradan qaldırılması məqsədəmüvafiqdir", - deyə ombudsman vurğulayıb.

S.Əliyeva, həmçinin diqqətə çatdırıb ki, şəxs müddətli həqiqi hərbi xidmətdə olduğu vaxtda onun uşaqlarına ödənilən müavinətin məbləğinin ölkə üzrə uşaqlar üçün müəyyən edilmiş yaşayış minimumuna uyğunlaşdırılması məqsədəmüvafiqdir. O bildirib ki, əvvəlki illərdə olduğu kimi, əlillik vəziyyətinin qiymətləndirilməsi məqsədilə həkim-məsləhət komissiyaları tərəfindən rəsmiləşdirilmiş göndərişlərin bir çox hallarda "natamam" hesab edilməsinin qiymətləndirmə prosesində çətinliklərə və əlillik təyinatının müəyyən müddət gecikməsinə səbəb olduğunu nəzərə alaraq, bu prosesdə iştirak edən qurumlar arasında koordinasiyalı və qarşılıqlı etimad prinsipinə əsaslanan fəaliyyətin təmin olunması, qiymətləndirmə prosedurlarının sadələşdirilməsi olduqca vacibdir. "Əlilliyi olan şəxslərin hüquqlarının daha səmərəli təmin olunması məqsədilə infrastruktur obyektlərinin, yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı həmin şəxslərin tələbatlarının nəzərə alınması məqsədilə layihələndirmə standartlarının yenilənməsi, tikinti prosesində müəyyənlik tələblərinə riayət olunmasına nəzarətin gücləndirilməsi, bu sahədə monitorinqlərin aparılması və çatışmazlıqların aradan qaldırılması, habelə metro və digər ictimai nəqliyyatın əlçatanlıq komponentləri ilə təmin olunması üzrə konkret fəaliyyət mexanizmlərinin hazırlanması və tətbiqi zəruridir", - deyə S.Əliyeva vurğulayıb.

Vurğulanıb ki, 2025-ci ildə ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində ümumilikdə 355 başçəkmə həyata keçirilib ki, onlardan 93-ü plandankənar olub. Başçəkmələr zamanı ümumilikdə 3462 nəfər qəbul edilib. Ombudsman il ərzində məhkumların və onların ailə üzvlərinin əfv barədə müraciətlərini nəzərə alaraq, müntəzəm qaydada Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasına təklifləri göndərib və Komissiyanın iclaslarında iştirak edib. Məruzədə o da qeyd olunub ki, ombudsmanın müraciətləri əsasında ümumilikdə 900 məhkum, 2025-ci ildə isə 21 məhkum əfv edilib.

Müzakirələrdən sonra ombudsmanın illik məruzəsi qəbul olunub.

İclasda, həmçinin "Uşaq hüquqları haqqında" yeni qanun layihəsi üçüncü oxunuşda qəbul edilib. Bildirilib ki, bu Qanun ölkədə uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların hüquq və azadlıqlarını, həmin hüquq və azadlıqların həyata keçirilməsi sahəsində dövlət təminatlarını və dövlət nəzarətinin əsaslarını müəyyən edir. 8 fəsil, 63 maddədən ibarət qanun layihəsində nəzərdə tutulmuş hüquqlar və azadlıqlar irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, əqidəsindən, sağlamlıq imkanlarından, valideynlərinin (onları əvəz edən şəxslərin), digər ailə üzvlərinin sosial vəziyyətindən, ictimai birliklərə mənsubiyyətindən və digər əlamətlərdən asılı olmayaraq hər bir uşağa aid edilir. Azərbaycanda olan əcnəbi və vətəndaşlığı olmayan uşaqlar digər qanunlarda və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, bu Qanunda nəzərdə tutulmuş bütün hüquqlardan və azadlıqlardan istifadə edə bilərlər.

Qanun layihəsinə görə, bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqlar bu Qanunda göstərilən əlamətlərə görə ayrı-seçkiliyə məruz qala bilməzlər. Uşaqlar valideynlərinin (onları əvəz edən şəxslərin) hərəkət və hərəkətsizliyinə görə məsuliyyət daşımırlar və valideynləri ilə (onları əvəz edən şəxslərlə) bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir. Nikahdan və ya nikahdankənar doğulmasından asılı olmayaraq, uşaqların valideynlərinin hər birinə münasibətdə eyni hüquqları var. Eyni zamanda, dövlət uşağın fərdiliyini, yəni vətəndaşlığını, adını və ailə əlaqələrini saxlamaq hüququnu qoruyur. Hər bir uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Uşağın şəxsi və ailə həyatının sirri qanunla qorunur və hər bir uşağın şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ var. Qanunla nəzərdə tutulan hallardan başqa, uşağın şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər bir uşağın şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, uşaq izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.

Qeyd edək ki, iclasın gündəliyində olan digər qanun layihələri də qəbul olunub.

# "Ailə dəyərləri bu gün"








Martın 3-də Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və YAP Xəzər rayon təşkilatının birgə təşkilatçılığı ilə "Ailə dəyərləri bu gün" mövzusunda tədbir keçirilib.

Zirə Mədəniyyət Mərkəzində keçirilən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov mövzunun aktuallığını və ailə dəyərlərinin qorunmasının önəmini diqqətə çatdırıb. O, həmçinin Ulu Öndər Heydər Əliyevin ailə institutunun möhkəmləndirilməsinə verdiyi böyük önəm və tövsiyələri xatırladıb.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva bildirib ki, ailə cəmiyyətin ən fundamental institutudur. Onun sözlərinə görə, ailə sadəcə sosial vahid deyil, dəyərlərin ötürüldüyü, şəxsiyyətin formalaşdığı, qarşılıqlı hörmətin və məsuliyyət hissinin öyrənildiyi ilk mühitdir. Ailədə qazandığımız mənəvi dəyərlər bütövlükdə cəmiyyətin dayanıqlığını müəyyən edir.

Z.Musayeva qeyd edib ki, bu gün ailə anlayışı qlobal miqyasda sürətli sosial dəyişikliklərin, texnoloji transformasiyanın, miqrasiya proseslərinin və yeni çağırışların təsiri altındadır: "Rəqəmsallaşma, urbanizasiya, iqtisadi dinamika və dəyişən sosial rollar ailə münasibətlərinə yeni çalarlar gətirir. Ailə dəyərləri yalnız mədəni ənənə məsələsi deyil, eyni zamanda insan hüquqları, sosial siyasət və dayanıqlı inkişaf kontekstində də mühüm önəm kəsb edir. Məhz ailə institutu sosial həmrəyliyin, qarşılıqlı dəstəyin və ictimai sabitliyin əsas dayaqlarından biridir".

YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova bildirib ki, cəmiyyətin mənəvi dayanıqlığı təsadüfi formalaşmır. Bu amillər uzun illər ərzində formalaşan dəyərlər sisteminin, mədəni ənənələrin və nəsillərarası ötürülən məsuliyyət anlayışının nəticəsidir. Həmin sistemin təməlində isə ailə dayanır. Ailə cəmiyyətin ilkin və ən təsirli institutudur. Çünki burada hər bir insanın xarakteri formalaşır, dünyagörüşü müəyyən edilir və vətəndaş mövqeyi bərqərar olur.

S.Qəhrəmanova qeyd edib ki, bu gün ailə institutunun mədəni dayaqlarının gücləndirilməsi strateji əhəmiyyət daşıyır. Çünki ailə daxilində formalaşan münasibət sonradan ictimai münasibətlərin strukturuna çevrilir. "Əgər ailədə hörmət, dialoq və qarşılıqlı anlayış mövcuddursa, cəmiyyətdə də sosial harmoniya möhkəmlənir. Unutmamalıyıq ki, gələcək nəsillərin xarakteri yaratdığı mühitlə müəyyən olunur. Sağlam ailə yalnız fərdi xoşbəxtlik deyil, milli dayanıqlılıq deməkdir. Güclü ailə modeli güclü cəmiyyətin və dövlətin əsasını təşkil edir", - deyə YAP Veteranlar Şurasının sədr müavini vurğulayıb.

Xəzər Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Elşən Qurbanov isə bildirib ki, Azərbaycan xalqı tarixən ailə institutuna xüsusi önəm verib, bu dəyərlər nəsildən-nəslə ötürülərək uğurla qorunub. Böyüyə hörmət, kiçiyə qayğı, qonaqpərvərlik, birlik və qarşılıqlı anlayış Azərbaycan ailəsinin əsas xüsusiyyətlərindəndir: "Bu gün ailə dəyərlərinin qorunması və gənclərin sağlam ailə prinsipləri əsasında tərbiyə olunması hər birimizin üzərinə düşən vacib vəzifələrdəndir". E.Qurbanov deyib ki, Xəzər rayonunda ailə məsələlərinin monitorinqi ilə əlaqədar komissiya fəaliyyət göstərir.

YAP Veteranlar Şurasının üzvü Fidumə Hüseynova bildirib ki, ölkəmizdə ailə modeli uzun illərdən bəri qorunub saxlanılaraq, fundamental dəyərlərini itirmədən günümüzə gəlib çatıb. F.Hüseynova deyib ki, buna baxmayaraq, qloballaşma Azərbaycan ailəsinə də öz təsirini göstərir: "Ən yeni dövr yeni münasibətlər formalaşdırır. Ailəni qiymətli edən milli-mənəvi dəyərlər, ənənələr, adətlərdir. Bu xüsusiyyətlərə malik, ailə modelimizi bütün dünyaya örnək edən zəngin ənənələrimiz var".

F.Hüseynova qeyd edib ki, Azərbaycan ailəsi məhz milli dəyərlər sayəsində həmişə uzunömürlülüyü və möhkəmliyi ilə seçilib: "Səmimiyyət, inam və qarşılıqlı hörmət ailə institutunu daha da möhkəmləndirir".

Çıxış edən YAP İdarə Heyətinin üzvü Rauf Əliyev isə deyib ki, ailə sağlam cəmiyyətin və güclü dövlətin təməlidir. Onun sözlərinə görə, ailə ənənələrin qoruyucusu və ötürücüsüdür. R.Əliyev qeyd edib ki, Azərbaycan dövləti ailə institutunun qorunması istiqamətində güclü qanunvericilik bazasına malikdir. Dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, sosial məsələlərin həllini prioritet vəzifə hesab edir və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. "Bu gün ailələrin üzərinə də böyük məsuliyyət düşür. Uşaqlar milli dəyərlərimizə zidd olan vasitələrdən uzaq tutulmalı, bu istiqamətdə fəal təbliğat işləri aparılmalıdır", - deyə YAP İdarə Heyətinin üzvü vurğulayıb.

Tədbir interaktiv formada davam edib, iştirakçıların sualları cavablandırılıb.

Tədbirdə YAP sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Ağdərə toqquşması: Gerçəkdə nə baş vermişdi?

**Tarix unudulmur və illər ötdükcə keçmişdə yaşanan hadisələrin mahiyyəti, gerçək səbəbləri daha aydın dərk olunur. Bu baxımdan təxminən 30 il davam edən keçmiş Dağlıq Qarabağ münaqişəsi dönəmində baş verənlər də istisna deyil. Tarixin bu günündə - 4 mart 2008-ci ildə ermənilər Ağdərə toqquşmasına rəvac veriblər. Yaddaşlarda həm də Tərtər hərbi təxribatı adı ilə qalan həmin hadisələrdən bizi artıq 18 il ayırır.**

Azərbaycanla Ermənistan arasında 1994-cü il mayın 8-də atəşkəsə dair "Bişkek protokolu" imzalanıb və mayın 12-dən etibarən həmin sənədin qüvvəyə minməsi təmin edilib. "Bişkek protokolu" özündə keçmiş təmas xətti boyunca hərbi əməliyyatların dayandırılmasını ehtiva edirdi. Əsaslandırılırdı ki, atəşkəs rejiminin gözlənilməsi gərginliyin artmasının qarşısını alacaq və münaqişənin danışıqlar yolu ilə həllinə şərait yaradacaq.

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində Ermənistanın havadarlarının dəstəyi ilə başladığı işğalçılıq müharibəsində torpaq itkilərinə məruz qalan Azərbaycanın əsas məqsədi ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi idi. Buna görə də ölkəmiz atəşkəs rejiminə əməl etməklə sülh danışıqlarında yüksək fəallıq ortaya qoyurdu. Azərbaycan hər vəchlə çalışırdı ki, danışıqlar daha intensiv şəkildə aparılsın və ədalətli nəticələr əldə olunsun.



Lakin Ermənistanın yanaşması tamam fərqli idi. İşğalçı dövlət havadarları ilə birlikdə münaqişənin sonsuzluğadək uzanmasında maraqlı idi və buna görə də hətta atəşkəs rejimini, danışıqlar prosesini manipulyasiya predmetinə çevirməkdən çəkinmirdi. Düşmən tərəfi "Bişkek protokolu" imzalandıqdan sonra da öz ampulasında qalmaqda davam edirdi. 1994-cü ildən sonra ermənilər bir neçə dəfə təxribata əl atmaqla atəşkəs rejimini pozmuşdular. Haqqında bəhs etdiyimiz Ağdərə toqquşması miqyasına görə onların arasında ən böyüyü idi.

Bəs atəşkəs rejimində Ağdərə toqquşması və yaxud Tərtər hərbi təxribatı niyə baş vermişdi? İlk vaxtlarda Ermənistanın hərbi-siyasi rəhbərliyi baş verənləri Azərbaycanın təmas xəttində atəşkəsi pozması ilə əlaqələndirməyə çalışırdı. Guya? Ermənistan Azərbaycanın keçmiş təmas xəttinin Ağdərə istiqamətində hansısa bir təxribat törətməsinə cavab olaraq məcburi addımlar atmalı olub.

## Köçəryan - Sarkisyan cütlüyünün növbəti məkrli planı

Lakin sonradan Ermənistan cəmiyyətinin özündə də təsdiqləndi ki, bu kimi versiyalar blefdən başqa bir şey deyil. Son vaxtlarda Ermənistanın hazırkı rəhbərliyi, şəxsən baş nazir Nikol Paşinyan tarix boyunca mövcud olmuş erməni miflərini dağıdır, o cümlədən də keçmiş Dağlıq Qarabağ münaqişəsinin gerçək mahiyyətini açıb göstərir. N.Paşinyanın təbirincə desək, otuz il ərzində Ermənistanın sabiq rəhbərləri - L.T.Petrosyan, R.Köçəryan, S.Sarkisyan Qarabağ kartından öz hakimiyyətlərini qorumaq üçün bir vasitə kimi istifadə ediblər. Onlar erməni xalqının faciələri üzərində öz xoşbəxtliklərini axtarıblar - külli miqdarda sərvət toplayıblar, eyş-işrət içində yaşayıblar, ölkənin uğursuzluqlarını, ermənilərin səfalət içində yaşamalarını isə Qarabağ müharibəsi ilə əlaqələndiriblər. Ağdərə toqquşması Ermənistanın o dövrdəki hakimiyyətinin - R.Köçəryan - S.Sarkisyan cütlüyünün növbəti məkrli planı idi.

## Ermənistanda seçki saxtakarlığı və dərhal baş verən Ağdərə toqquşması

Mühüm ictimai-siyasi hadisələr ərəfəsində müxtəlif manipulyasiyalara əl atılması, təxribatlar, iğtişaşlar törədilməsi, hətta sifarişli qətllər törədilməsi, parlamentin güllələbaran edilməsi Ermənistanda geniş intişar tapmış siyasi texnologiyadır. Bir-birinə müxalifətdə dayanan qüvvələr sağlam rəqabət aparmaq əvəzinə, qarşı tərəfi nüfuzdan salmaq və yaxud tamam sıradan çıxartmaqdan ötrü belə çirkin vasitələrə tez-tez əl atırlar. Ağdərə toqquşması bunun ən tipik nümunələrindən biridir. Ağdərə toqquşmasının Ermənistanda 2008-ci ilin fevral ayında keçirilən prezident seçkilərindən dərhal sonra baş verməsi heç bir halda təsadüfi sayıla bilməz. Erməni ekspertlərinin də təsdiqlədiyi kimi, Ermənistan silahlı qüvvələri tərəfindən keçmiş təmas xəttinin Ağdərə istiqamətində təxribat törədilməsi ölkə gündəmini dəyişmək, ictimaiyyətin diqqətini seçkilərin saxtalaşdırılması səbəbindən yaranan ajiotajdan yayındırmaq məqsədi daşıyırdı.

O dövrdə Ermənistanda daxili vəziyyət kritik dərəcədə gərgin idi. Bu gərginlik ölkədə 2008-ci il 19 fevral tarixində keçirilən prezident seçkilərinin nəticələrinin saxtalaşdırılmasından qaynaqlanırdı. Seçkilərdə S.Sarkisyan və L.T.Petrosyan əsas rəqiblər idilər. Prezident R.Köçəryan baş nazir S.Sarkisyanın namizədliyini dəstəkləyirdi. Prezidentliyə namizəd olan L.T.Petrosyan isə hakimiyyəti sərt şəkildə tənqid edirdi. O, Köçəryan iqtidarını kütləvi korrupsiya əməllərində və son beş il ərzində "dörd milyard dollardan azı üçün" mənimsəməsində günahlandırırdı. L.T.Petrosiyan qətiyyətlə bildirirdi ki, prezident seçiləcəyi təqdirdə bu cinayətlər hüquqi müstəvidə araşdırılacaq və günahkarlar mütləq qaydada cəzalandırılacaq.

Saxtakarlıqla keçirilən 19 fevral seçkilərinin nəticələri S.Sarkisyanın xeyrinə elan edildikdən dərhal sonra - fevralın 20-də L.T.Petrosyanın çağırışı ilə paytaxt İrəvanda və regionlarda kütləvi etiraz aksiyaları başladı. Mitinqçilərin hüquq-mühafizə orqanları ilə toqquşması zamanı azı 8 nümayişçi və 1 hərbçi həyatını itirdi, 33 polis əməkdaşı xəsarət aldı, bütövlükdə xəstəxanalara müraciət edənlərin sayı təxminən 230 nəfərə çatdı. Mitinqlər təxminən 10 gün ərzində fasiləsiz şəkildə davam etdirildi. İrəvanın küçə və meydanlarında çoxlu sayda çadırlar qurulmuşdu. Nümayişçilərin arasında qadınlar, uşaqlar və yaşlılar var idi, onlar, həmçinin gecə çadırlarda qalırdılar. Levon Ter-Petrosyan isə polis əməkdaşları tərəfindən məcburi olaraq öz evinə gətirilmişdi və o, faktiki olaraq ev dustaqlığına məhkum edilmişdi.

Mitinqlərin genişlənməsindən və getdikcə daha idarəolunmaz hala gəlməsindən təşvişə düşən hakimiyyət ölkədə 20 günlük fövqəladə vəziyyət elan etdi. Prezident R. Köçəryan öz qərarını nümayişçilərin Maştots prospekti yaxınlığındakı mağazaları qarət etmələri, polis avtomobillərinin və avtobusların yandırılması, həmçinin polis işçilərinə ağır xəsarət yetirilməsi ilə əsaslandırdı.

Bundan sonra hakimiyyətin növbəti taktikası ölkə gündəmini dəyişmək oldu. Yenə də ənənəvi Qarabağ kartına əl atıldı və hakimiyyətin ssenarisi əsasında keçmiş təmas xəttinin Ağdərə istiqamətində növbəti təxribata əl atıldı. Bu zaman Ermənistanın hərbi-siyasi rəhbərliyi yenə də köhnə bəhanələri təkrarladı - guya, Azərbaycan Ordusu atəşkəsi pozub və Ermənistan tərəfi də bunun qarşısını almaq məcburiyyətində qalıb.

Keçmiş təmas xəttində təxribata rəvac verən Ermənistan rəhbərliyi İrəvandakı seçki ajiotajını səngitmək məqsədi ilə Ağdərə toqquşmasını cəmiyyətə növbəti hərbi uğur kimi sırımağa çalışdı. Ermənistanın rəsmi qurumlarının məlumatında toqquşmalar zamanı guya, canlı qüvvə sarıdan itki verilmədiyi, yalnız iki əsgərin yaralandığı bildirilirdi. Çox keçmədi ki, Ermənistan hakimiyyətinin bu təsəlli yalanları faş edildi. Belə ki, Ağdərə toqquşmasında Ermənistan silahlı qüvvələrinin 12 hərbçi itirdiyi müxtəlif kanallar vasitəsi ilə təsdiqləndi. Beləliklə də, R.Köçəryan iqtidarının rəvac verdiyi Ağdərə toqquşması ölkə daxilində hakim komandaya qarşı nifrəti daha da artırdı.

***Mübariz ABDULLAYEV***

# İpoteka kreditləri üçün müraciətlər başlayır

## Vətəndaşlar “SİMA İmza”dan istifadə etməklə ayrılmış ipoteka limitindən faydalanacaqlar

İpoteka və Kredit Zəmanət Fondu (İKZF) tərəfindən 2026-cı il ərzində ipoteka kreditləşməsi prosesinin davam etdirilməsi məqsədilə müvəkkil banklara ipoteka kreditlərinin, o cümlədən güzəştli ipoteka kreditlərinin verilməsi üçün limitlər ayrılıb. Belə ki, adi ipoteka kreditləri üzrə martın 5-dən, güzəştli ipoteka kreditləri üzrə martın 6-dan etibarən müraciətlərin qəbuluna başlanılacaq. Müraciətlərin qəbulu “Elektron ipoteka və kredit zəmanət” sistemi (www.e-gov.az) üzərindən elektron imza vasitələri (SİMA Token (Elektron İmza), SİMA Rəqəmsal, Asan İmza) ilə həyata keçiriləcək. Xatırladaq ki, müraciətlərin çoxluğu nəzərə alınaraq daha asan qeydiyyat məqsədilə 2026-cı ilin fevral ayından etibarən “SİMA İmza” “Elektron ipoteka və kredit zəmanət” sisteminə inteqrasiya edilib. “SİMA İmza” rəqəmsal imzanın da tətbiq edilməsi vətəndaşlar üçün vaxt və maliyyə itkilərinin qarşısının alınmasına, göstərilən xidmətlərin səmərəliliyinin artırılmasına xidmət edir.

Nizamnamə kapitalı 1 milyard 153 milyon manata bərabər olan İpoteka və Kredit Zəmanət Fondu həm biznes, həm də vətəndaşların güzəştli kreditlərə əlçatanlığı üçün mühüm maliyyə mənbəyi rolunu oynayır. Davamlı olaraq nizamnamə kapitalını artıran bu təsisat daha çox ipoteka kreditlərini təklif etməklə, güzəştli şərtlərlə kredit təminatını icra edərək daha çox vətəndaşın güzəştli ipoteka kreditindən faydalanmasına imkan yaradır.

### Ötən il 4309 ailə ipoteka krediti ilə mənzil sahibi olub

“Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası”na uyğun olaraq, Fond 2025-ci il ərzində də əhalinin mənzil təminatının yaxşılaşdırılması istiqamətində fəaliyyətini davam etdirib. Ötən ildə Fondun vəsaiti hesabına müvəkkil banklar tərəfindən 442,8 milyon manat həcmində 4309 ipoteka krediti, o cümlədən 347,2 milyon manat məbləğində 3153 adi ipoteka krediti və 95,6 milyon manat məbləğində 1156 güzəştli ipoteka krediti verilib. Ümumilikdə, 2006-2025-ci illərdə Fondun vəsaiti hesabına verilən ipoteka kreditlərinin məbləği 3,76 milyard manatı keçib ki, bu da 56800-dən çox ailənin mənzil şəraitinin yaxşılaşmasına imkan verib. Şəxsi yığımları yetərli olmayan əhalinin daha aşağı ilkin ödənişlə ipoteka kreditlərindən faydalanmasını təmin etmək məqsədilə 01 yanvar 2026-cı il tarixinə Fond tərəfindən 139,9 milyon manat məbləğində 1490 ipoteka krediti üzrə zəmanət verilib.



### 2813 ailə kirayə mexanizmi vasitəsilə mənzil əldə edib

Hazırda İpoteka və Kredit Zəmanət Fondu tərəfindən şəxsi yığımları yetərli olmayan vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə satmaq öhdəliyi ilə kirayə mexanizminin icrası da uğurla davam etdirilir. Bu tədbirlər çərçivəsində 2025-ci ildə Bakı və Sumqayıt şəhərləri, həmçinin Abşeron rayonunda 5 ünvanda yerləşən yaşayış komplekslərində satmaq öhdəliyi ilə kirayə mexanizmi çərçivəsində mənzillər təqdim edilib və 2813 kirayə müqaviləsi rəsmiləşib. 2026-cı il yanvarın 1-nə olan məlumata görə, bu mexanizm vasitəsilə indiyə qədər 9070 ailənin mənzil şəraiti yaxşılaşıb. Mənzil sahibi olan vətəndaşların 60 faizindən çoxunu gənclər və gənc ailələr təşkil edir. Təklif edilən mənzillər vətəndaşların istirahəti üçün geniş həyətyanı sahəyə malik, əsas infrastruktur obyektlərə (məktəb, bağça, səhiyyə ocaqları) yaxın komplekslərdə yerləşir. Bütün mənzillər yeni və müasir tikinti materiallarından istifadə olunmaqla yüksək səviyyədə təmir edilib, isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz, elektrik sayğacları ilə təchiz olunub, eyni zamanda, həmin mənzillərin mülkiyyət hüquqları dövlət qeydiyyatına alınıb.

### Sahibkarlara 684 milyon manat kredit verilib

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı, biznes və investisiya mühitinin əlverişliliyinin daha da artırılması, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi məqsədilə biznesin ipoteka təchizatı da xeyli yaxşılaşdırılıb. Sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə zəmanətin və bu kreditlər üzrə hesablanmış faizlərə görə subsidiyalarla təmin edilməsi bu sahədə mühüm dönüş yaradıb.

2026-cı il yanvarın 1-nə olan məlumata görə, Fondun təqdim etdiyi zəmanət hesabına müvəkkil banklar tərəfindən sahibkarlara 684 milyon manat, 2025-ci ildə isə 147 milyon manat məbləğində kredit verilib. Mexanizm çərçivəsində indiyə qədər zəmanət verilmiş kreditlərin orta müddəti 30 ay, Fond tərəfindən sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərin bir hissəsinə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki illik faiz dərəcəsi 6,8 faiz, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min manatdan 5 milyon manatadək təşkil edib.

Kreditlər sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesi, tikinti sektoru, turizm və infrastrukturun inkişaf etdirilməsi ilə bağlı sahələrə, maşın və avadanlıq istehsalına, ticarət və xidmət sektoruna yönəldilib. Fondun zəmanət və faiz subsidiyası hesabına sahibkarlara ayrılan kreditlər vasitəsilə maliyyələşən layihələr üzrə 6000-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Qeyri-neft sektorunda fəaliyyət göstərən mikro və kiçik sahibkarların, eləcə də emitent şirkətlərin maliyyə vəsaitlərinə əlçatanlığının artırılması məqsədilə sahibkarlığa dəstək alətlərinin çeşidi artırılıb və iki yeni alətin - sahibkarların manatla aldıqları kreditlərə münasibətdə kredit portfelinin təminatı, həmçinin istiqrazlar üzrə sahibkarların öhdəliklərinə təminat mexanizmlərinin tətbiqinə başlanılıb. Belə ki, 2025-ci ildə istiqraz emissiyası üzrə öhdəliklərin təmin edilməsi mexanizmi çərçivəsində 10 milyon manatlıq istiqraz buraxılışına 6 milyon manat məbləğində zəmanət təqdim edilmişdir. Sahibkarların manatla əldə etdikləri kreditlər üzrə portfel zəmanət mexanizmi çərçivəsində 360 sahibkarın 5,33 milyon manat məbləğində kreditinə 4 milyon manat həcmində zəmanət verilib.

### İpoteka mexanizmi təkmilləşdirilir

Azərbaycanda ipotekaya əlçatanlığın təmin edilməsi məqsədilə ötən ilin sonlarında dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuş “İpoteka haqqında” qanuna əsasən, ipoteka mexanizmində bir sıra dəyişikliklər edilib. Dəyişikliklərə əsasən, ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun mübadiləsi, müqavilənin notariat qaydasında təsdiq edilməsi və üstünlük hüququnun dövlət reyestrində qeydiyyata alınması təklif olunur. İpotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ ipoteka saxlayanlar arasında dəyişdirildikdə hüquqlar daşınmaz əmlakın dövlət reyestrində və daşınar əmlakın rəsmi reyestrində sənədlərin təqdim edildiyi gündən 3 iş günü müddətində qeydə alınacaq. Həmçinin ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ dəyişdirildikdə dövlət rüsumu üstünlük hüququnun keçdiyi ipoteka saxlayan tərəfindən ödəniləcək.

*E.CƏFƏRLİ*

# Qlobal iqtisadiyyat üçün təşviş

## Hörmüz boğazının tam bağlanması neftin 140 dollara qədər bahalaşmasına səbəb ola bilər

İranın Hörmüz boğazını bağlamaq barədə bəyanatı dünya enerji bazarında psixoloji gərginlik yaradıb. Körfəz ölkələrinin logistika sistemində yaranan panika avtomatik olaraq neft qiymətlərinin və mayeləşdirilmiş qazın (LNG) tariflərinə ciddi təsirlər göstərib. İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Hərbi Dəniz Qüvvələri (HDQ) radio rabitəsi vasitəsilə gəmilərin Hörmüz boğazını keçməsinin qadağan edildiyinə dair xəbərdarlığı isə narahatlıqları daha da artırıb. Hətta iri neft şirkətlərinin bu xəbərdarlıqdan Hörmüz boğazı vasitəsilə xam neft, yanacaq və mayeləşdirilmiş təbii qaz tədarükü dayandırmasına dair məlumatlar yayılıb. Doğrudur, rəsmi qaydada boğazın bağlanması barədə qərar verilməyib, ancaq buna baxmayaraq, qlobal təchizat zəncirində pozulmalar artıq özünü göstərməkdədir. Qlobal geosiyasi gərginlik və son 2 gündə təchizatda fasilələrin artması neft qiymətlərinin kəskin şəkildə yüksəldib. Beləki, “Brent” neftinin fyuçersləri 13 faiz yüksələrək bir barel üçün 80 dollar təşkil edib. Dünya bazarında “Azeri Light” markalı Azərbaycan neftinin 1 barelinin qiyməti son 2 gündə təqribən 7,8 dollar bahalaşaraq 80 dolları ötüb.

### OPEC və “OPEC+” hasilatı artırsa da...

Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) və “OPEC+” ölkələri bazar günü keçirilən görüşdə hasilatı gündə 206 min barel artırmaq barədə razılığa gəliblər. İstehsalın artması ABŞ-İran münaqişəsindən qaynaqlanan bəzi təchizat fasilələrini kompensasiya edə bilər, baxmayaraq ki, qrup üzvlərinin artımları davam etdirib-etdirməyəcəyi hələ məlum deyil. ABŞ-İran münaqişəsi səbəbindən gəmiçilikdə yaranan fasilələr də neft tədarükünə ümumi təsiri məhdudlaşdıra bilər. Ancaq münaqişə iki həftə davam edərsə, beynəlxalq enerji agentlikləri tərəfindən gözlənilən mümkün qiymət səviyyəsi 90-95 dollar proqnozlaşdırılır. Hörmüz boğazının qismən bağlanması riski isə neftin 100 dollara, tam bağlanması 120-140 dollara qədər yüksəlməsinə səbəb ola bilər.

Xatırladaq ki, Hörmüz boğazı qlobal neft logistikası zənciri hesab edilir. Boğaz Fars körfəzi ilə Oman körfəzi arasında, Oman körfəzi vasitəsilə isə Ərəbistan dənizi və Hind okeanı ilə əlaqəni təmin edir. Boğazın ən dar nöqtəsi İranın Larak adası ilə Omanın Böyük Kveyn adasını əhatə edir - 39 km enliyə malikdir. Digər ərazilərdə isə enlik 97 km-ə çatır. Suyun dərinliyi 229 metrə bərabərdir, baxmayaraq ki, dərinliyi 27 metrdən başlayan dayaz sahələr də var.

Gündəlik neft daşınmalarının təxminən 20 faizi, mayeləşdirilmiş təbii qazın (LNG) isə 25 faizi bu boğazdan keçir. Boğazdan gündə təxminən 22 milyon barrel neft daşınır ki, bu da istehlak olunan xam neftin beşdə biridir. Boğazın bağlanması bu baxımdan regiondakı bütün neft və qaz istehsalçılarını - Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, İraq, Qətərin ixrac sistemini pozmuş olur. Həmin neftin əsas alıcıları isə qlobal istehlakçılar - Çin, Hindistan, Yaponiya, Cənubi Koreya, Avropa və digərləridir. Eləcə də ABŞ-ın özünə bu boğazdan körfəz ölkələrinin yanacağı daşınır. Boğaz həm də qlobal nəqliyyat körpüsü kimi sənaye, ərzaq və digər malların da daşındığı logistika şaxəsidir.




### Qlobal inflyasiyanın ikirəqəmli həddə yüksəlməsi ehtimal edilir

Hörmüz boğazının bağlanması 2 cəhətdən qlobal iqtisadiyyatı sarsıtmış olur. Birincisi, neft və neft məhsullarının kəskin bahalaşması baş verir. Çünki alternativ daşınma xətləri azdır. Birləşmiş Ərəb Əmirliklərindəki “Habshan-Fujairah” boru kəməridir ki, gündə təxminən 1,5 milyon barel neft ötürə bilər. Səudiyyə Ərəbistanın sahibi olduğu Qırmızı dəniz üzərindən keçən alternativ Şərq-Qərb Boru Kəməri isə gündəlik 5 milyon barel neft ötürür. Beləliklə, hər iki xətt üzrə ən yaxşı halda 7 milyon barel nefti alternativ yol üzrə daşımaq mümkündür. Ancaq bu bölgədən gündəlik dünya enerji sektoruna 22 milyon neft çıxdığından qalan 15 milyon barelin çatdırılması təmin edilə bilməz. Bu o deməkdir ki, Hörmüz boğazı strateji dəhliz kimi əsas yol olaraq qalır.

İkincisi, sənaye, ərzaq və xammal təchizatında logistika məhdudiyyətləri yaranır və dünyada bütün növ xammal və ehtiyatları bahalaşmış olur. Nəticədə qlobal iqtisadiyyatda kəskin inflyasiya yaranır. Mütəxəssislər bildirirlər ki, Hörmüz boğazının bağlanması qlobal neft qiymətlərində kəskin artıma, yanacaq və enerji tariflərinin bahalaşmasına, dünya bazarlarında təşvişə səbəb ola bilər. Bu boğaz dünya enerji təhlükəsizliyinin əsas arteriyalarından biri hesab olunur. Onun bağlanması isə regional addım kimi görünsə də, nəticələri qlobal iqtisadi şoka çevrilə, inflyasiya ikirəqəmli həddə çata bilər.

### Beynəlxalq koalisiya tərəfindən gözlənilən sərt tədbirlər

Ona görə də, bütün qlobal təchizat və istehlak üzvləri diqqəti bu kritik məsələyə yönəldib. Məsələ ondadır ki, BMT-nin 1082-ci ildə qəbul edilmiş Dəniz Hüququ Konvensiyasına əsasən, Hörmüz boğazı gəmilər üçün sərbəst tranzit keçidini təmin edən beynəlxalq su yolu hesab olunur və İran müqaviləni pozmaqla beynəlxalq koalisiya tərəfindən təzyiqlərə məruz qala bilər. ABŞ və iri neft təchizatçıları, eləcə də digər qlobal treyderlər bu nəqliyyat bağlantısının qapadılması halında BMT səviyyəsində ciddi addımlar ata bilər. Bu, İranın özünün iqtisadi problemlərlə üzləşməsinə gətirib çıxarar. Belə ki, sanksiyalar və digər inzibati sərt addımlar sayəsində İranın Xarq adasındakı ən böyük neft terminalının fəaliyyəti məhdudlaşdırıla bilər. Bu terminal İranın bütün neft və neft məhsulları ixracının təxminən 90 faizini idarə edir. Bura dünyanın ən böyük neft tankerlərini qəbul edə bilən azsaylı neft terminallarından biridir. Müxtəlif tonnajlı doqquz tanker eyni vaxtda bu terminalda lövbər sala bilər. Xarq adasındakı neft anbarları istehlakçılara gündəlik 10 milyon barreldən çox neft göndərməyə imkan verir.

Bundan başqa Kenqan Qaz Emalı Zavodu həddə alına bilər. İran dünyanın ən böyük qaz istehlakçılarından biri olaraq qalır. Ölkədəki bütün elektrik enerjisinin üçdə ikisi onun vasitəsilə istehsal olunur. Bu resursun İran üçün böyük əhəmiyyətinə baxmayaraq, ölkədə yalnız Kenqan şəhərində yerləşən bir emal zavodu var. Bu zavod sıradan çıxsa, İran bir neçə gün ərzində özünü minimal elektrik enerjisi ilə belə təmin etmək qabiliyyətini itirəcək.

Nəhayət, beynəlxalq koalisiya Bəndər Abbasdakı Şəhid Rəcai limanın da fəaliyyətini qapatmaq üçün sərt tədbirlər görə bilər. İranın okeanlara çıxışını təmin edən yeganə dərin su limanı olan bu liman bütün İran idxalının və ixracının təxminən 40 faizini təmin edir. Bunun böyük hissəsi Tehran da daxil olmaqla mərkəzi İrana gedir. Onun sıradan çıxması ölkəni qida, sənaye malları və avadanlıqların təchizatında görünməmiş çətinliklər yaradar.

Göründüyü kimi, İranın manevr imkanları getdikcə daralır və təkcə bu 3 hədəfin vurulması İranın Hörmüz boğazını real olaraq uzun müddətə bağlamaq planlarına ağır və sarsıdıcı cavab ola bilər.

Bütün bunları nəzərə aldıqda Hörmüz boğazının bağlanması heç bir tərəfə fayda vermədiyindən bu ağır risklərə getmək lüzumsuz sayılır.

*E.CƏFƏRLİ*

# Yaxın Şərqdə müharibənin miqyası böyüyür

## İran 24 saat əvvəl...

Yaxın Şərqdəki gərginlik davam edir. Fevralın 28-dən başlanan döyüşlərin miqyası genişlənməkdədir. Artıq bütün Yaxın və Orta Şərq, Körfəz regionu münaqişənin təsirlərini hiss edir, raket hücumlarına məruz qalırlar. Qeyd edək ki, İran tərəfi atılan raketlərin qarşılığında cavab verir. Beynəlxalq KİV İran ordusunun İsrail və ABŞ-nin hərbi hava bazalarına endirdiyi zərbələrdə texnoloji cəhətdən təkmilləşdirilmiş yeni növ partlayıcı başlıqlardan istifadə edilməsi barədə məlumat yayıb. Bildirilib ki, rəsmi Tehranın son hücumlarında istifadə etdiyi raketlər həm həcm, həm də keyfiyyət baxımından əvvəlkilərdən ciddi şəkildə fərqlənir. Belə ki, yeni nəsil döyüş başlıqlarında tətbiq edilən partlayıcı maddələr sayəsində 500 kiloqramlıq raketin dağıdıcı gücü əvvəlki bir tonluq başlıqların effektivliyinə bərabərdir. CNN-in yaydığı məlumatda bildirilir ki, ABŞ tərəfi cavab zərbələrini dəf etmək və İranın hərbi potensialını daxildən sarsıtmaq üçün "Tomahawk" raketləri və HIMARS sistemlərindən ibarət geniş arsenalını işə salıb.

## Trampdan açıqlama: Bütün seçimlər açıq saxlanılacaq

Bu arada ABŞ Prezidenti Donald Tramp İranla bağlı mümkün hərbi ssenarilərə dair diqqətçəkən bəyanatla çıxış edib. "The New York Times" nəşrinin məlumatına görə, Tramp zərurət yaranacağı halda ABŞ hərbi qüvvələrinin İranda yerləşdirilməsi ehtimalını istisna etmədiyini bildirib. Məlumata əsasən, Tramp, eyni zamanda, İrana qarşı quru əməliyyatının keçirilməsi variantının da nəzərdən keçiriləbiləcəyini vurğulayıb. Onun sözlərinə görə, ABŞ-nin milli təhlükəsizliyi və maraqları tələb edərsə, bütün seçimlər açıq saxlanılacaq.

Tramp, həmçinin Vaşinqtonun həm İranın nüvə proqramına, həm də hərbi-dəniz qüvvələrinə qarşı paralel şəkildə zərbələr endirdiyini bildirib. Onun sözlərinə görə, ABŞ qüvvələri İranın nüvə obyektlərini məhv etməyə davam edir və Tehranın bu proqramı başqa məkanlarda yenidən qurmasına imkan verməyəcək. Prezident vurğulayıb ki, əməliyyatlar lazım olduğu qədər davam edəcək və ilkin hesablamalarda 4-5 həftə nəzərdə tutulsa da, müddətin uzadılması ehtimalı var. Tramp, həmçinin İran donanmasına qarşı zərbələrdən danışaraq artıq 10 hərbi gəminin batırıldığını iddia edib. O bildirib ki, Vaşinqton "dünyanın terrorun əsas sponsoru" adlandırdığı İranın heç vaxt nüvə silahı əldə etməsinə imkan verməyəcək.

## Ər-Riyaddakı ABŞ səfirliyinə raket hücumu olub

Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadın raket zərbələrinə məruz qaldığı bildirilir. İran tərəfindən atılan ballistik raketlərdən biri şəhərin mərkəzi hissəsində avtomobil yolunun yaxınlığına düşüb və nəticədə genişmiqyaslı yanğınlar baş verib. Bir neçə avtomobil alışaraq yanıb. İlkin məlumatlara görə, zərbələrdən sonra şəhərin müxtəlif nöqtələrində güclü partlayış səsləri eşidilib.

Səudiyyə Ərəbistanı hakimiyyəti öz növbəsində ABŞ səfirliyinə endirilən zərbələri təsdiqləyib.

Səudiyyə Ərəbistanı Müdafiə Nazirliyi "X" sosial media platformasında verdiyi açıqlamada bildirib: "İlkin qiymətləndirmələrə görə, Ər-Riyaddakı ABŞ səfirliyinə iki pilotsuz uçuş aparatı hücum edib və nəticədə məhdud yanğın baş verib, binaya kiçik ziyan dəyib".

İran, həmçinin Bəhreyn və Səudiyyə Ərəbistanını birləşdirən Fars körfəzindəki Kral Fəhd körpüsünə pilotsuz təyyarə ilə zərbə endirib. Məlumata görə, ABŞ 25 kilometr uzunluğundakı bu infrastruktur obyektindən istifadə edərək hərbi kontingentini Bəhreyndəki ərazidən çıxara bilərdi

## Səfirliklər müvəqqəti bağlandı...

Vaşinqton gərginlik səbəbi ilə bir sıra qabaqlayıcı tədbirlər də görür. Artıq bir sıra ölkələrdəki diplomatik nümayəndəliklər müvəqqəti olaraq fəaliyyətini dayandırıb. Belə ki, ABŞ-ın İraqdakı konsulluq xidmətləri dayandırılıb. Birləşmiş Ştatların İraqdakı səfirliyi təhlükəsizliklə bağlı narahatlıqlar səbəbindən vətəndaşları Bağdaddakı səfirliyə və ya Ərbildəki Konsulluğa getməmək barədə xəbərdar edib. Bəyanatda qeyd olunur ki, 2 mart tarixindən etibarən bütün əməkdaşlara olduqları yerdə qalmaları tapşırılıb və adi Amerika vətəndaşlarına göstərilən xidmətlər də daxil olmaqla, konsulluq xidmətləri müvəqqəti olaraq dayandırılıb.

ABŞ-ın Küveytdəki və Səudiyyə Ərəbistanındakı səfirlikləri də "regional gərginlik" səbəbindən növbəti xəbərdarlığa qədər bağlanıb. Eyni zamanda, Kanadanın Ər-Riyaddakı səfirliyi də fəaliyyətini dayandırıb.

## Tehrana növbəti hücum...

Tehrandakı dövlət yayım qurumu hücuma məruz qalıb. Məlumatlara görə, Tehranda fəaliyyət göstərən dövlət televiziya və radio kompleksinə hücum edilib.

Dəyən ziyanın miqyası barədə hələlik rəsmi açıqlama verilməyib. İran tərəfi məsələ ilə bağlı geniş məlumat yaymayıb.

Bundan başqa, İranın kəşfiyyat və təhlükəsizlik nazirinin müavini Seyyid Yəhya Hamidinin həlak olduğu bildirilib. Bu barədə İsrail ordusu yaydığı rəsmi bəyanatda məlumat yayıb. Açıqlamada qeyd olunub ki, əməliyyat "dəqiq kəşfiyyat məlumatları" əsasında həyata keçirilib və İranın əsas kəşfiyyat qurumu olan İran Kəşfiyyat və Təhlükəsizlik Nazirliyinin yüksək vəzifəli şəxsləri hədəfə alınıb. Məlumata əsasən, Yəhya Hüseyni Pencəki İran Müdafiə Nazirliyinin "İsrail masası"na rəhbərlik edib və bu istiqamətdə əməliyyatlara kuratorluq edib.

İsrail Tehranda İranın təhlükəsizlik və kəşfiyyat qurumlarına məxsus obyektlərə də zərbələr endirib. İsrail Hərbi Hava Qüvvələri İran Daxili Təhlükəsizlik Qüvvələrinin komanda məntəqələri və bazalarını hədəfə alıb. Bildirilir ki, bu qurum ölkə daxilində etiraz aksiyalarının qarşısının alınması və təhlükəsizlik əməliyyatlarına cavabdehdir. Məlumata görə, zərbələr İranın Kəşfiyyat Nazirliyinin 10-dan çox komanda məntəqəsini, eləcə də SEPAH-ın xüsusi təyinatlı "Qüds" qüvvələrinin qərargahını da əhatə edib. Bundan əlavə, İsrail tərəfi yer-yer raket sistemlərinin, silah istehsalında istifadə olunan obyektlərin və SEPAH-a aid digər hədəflərin vurulduğunu bildirib.

## Bəhreyndə ABŞ hərbçilərinin qaldığı otel vuruldu

Martın 2-də İran tərəfindən həyata keçirildiyi bildirilən dron hücumunda Pentaqon rəsmilərinin Bəhreyndə qaldığı otel hədəfə alınıb. Məlumata əsasən, hadisə nəticəsində ABŞ Müharibə Nazirliyinin yüksək rütbəli nümayəndələri arasında yaralananların olduğu qeyd olunur. Zərbənin miqyası və konkret itkilərlə bağlı rəsmi qurumlar tərəfindən ətraflı açıqlama verilməyib.

İranın xarici işlər naziri Abbas Əraqçi bildirib ki, Tehran regionda yerləşən ABŞ hərbi bazalarını legitim hədəf hesab edir, hətta həmin obyektlərin birbaşa İrana qarşı hücumlarda iştirak etmədiyi iddia olunsa belə. Əraqçi çıxışında qeyd edib ki, İran daha əvvəl də region ölkələrini xəbərdar edib: ABŞ İranla müharibəyə girərsə, qarşıdurma yalnız iki ölkə ilə məhdudlaşmayacaq. "Biz dəfələrlə demişik ki, Amerika bizimlə müharibəyə başlasa, bu, təkcə İran və ABŞ arasında qalmayacaq, bütün regiona yayılacaq. Bu, bizim istədiyimiz üçün deyil, ABŞ bazalarının region boyu yerləşməsi ilə bağlıdır. Bizim baxışımıza görə, bu bazalar legitim hədəflərdir. Çünki onlar bizə hücum edən ölkəyə məxsusdur, hətta iddia etsələr belə ki, konkret baza İrana qarşı istifadə olunmur", - deyə nazir bildirib.

Əraqçi, həmçinin bildirib ki, region ölkələrindəki otellərdə yerləşdirilən ABŞ hərbi qulluqçuları İran üçün qanuni hədəf hesab ediləcək: "Əgər Amerika əsgərləri otellərdə sığınacaq tapıb orada gizlənirlərsə, bu, İranın onlara hücum etməkdən çəkinməsi üçün bəhanə və ya səbəb deyil".

## Rubio: İranın qarşısını almaq mümkün olmayacaqdı

ABŞ dövlət katibi Marko Rubio İrana qarşı keçirilən əməliyyatın zəruri olduğunu bildirib və Tehranın artan hərbi potensialının qlobal təhlükəyə çevrildiyini iddia edib. Rubio açıqlamasında qeyd edib ki, İran təxminən bir il və ya il yarım ərzində "toxunulmazlıq həddini" keçə bilərdi. "Bu əməliyyat baş verməli idi. Çünki İran yaxın gələcəkdə o qədər qısa mənzilli raket və pilotsuz aparat istehsal edəcəkdi ki, artıq bunun qarşısını almaq mümkün olmayacaqdı. Onlar bütün dünyanı girov götürə bilərdilər", - deyə ABŞ dövlət katibi bildirib.

Onun sözlərinə görə, bəzi hesablamalara əsasən, İran ayda 100-dən çox belə raket istehsal edir, halbuki eyni müddətdə cəmi 6-7 ədəd raket əleyhinə sistem istehsal etmək mümkündür. ABŞ dövlət katibi vurğulayıb ki, Vaşinqtonun əsas məqsədi İranın ballistik raket potensialını və bu silahları istehsal etmək imkanlarını, eləcə də İran hərbi-dəniz qüvvələrinin qlobal dəniz nəqliyyatına yaratdığı təhlükəni aradan qaldırmaqdır.




## Netanyahu: İran 50 Şimali Koreyaya bərabərdir

İsrailin Baş naziri Benyamin Netanyahu "Fox News"a verdiyi müsahibədə İranın ABŞ və İsrailin hərəkətləri nəticəsində ciddi şəkildə zəiflədiyini, əməliyyatların sürətli olacağını deyib: "Sonsuz müharibə olmayacaq. Sürətli və qətiyyətli əməliyyat olacaq".

O, davamlı zərbələrin "zəruri" olduğunu və əməliyyatın İranda rejim dəyişikliyi üçün şərait yarada biləcəyini bildirib: "İran rejimi indiyə qədər ən zəif vəziyyətdədir".

Netanyahu İranı təhlükə miqyası baxımından Şimali Koreya ilə müqayisə edərək, Tehranı daha böyük risk mənbəyi kimi təqdim edib. Netanyahu bildirib: "Heç kim Şimali Koreyanı dayandıra bilmədi və indi onun nüvə silahı və ballistik raketləri var. İran isə 50 Şimali Koreyaya bərabərdir. O, Birləşmiş Ştatları məhv etməyə yönəlib. Prezident Tramp bu reallığı anlayır".

## Vens: ABŞ-ın "bir çox variantı var"

ABŞ vitse-prezidenti C.D.Vens bunu Fox News-a müsahibəsində bildirib ki, ABŞ-ın İran hədəflərinə hücumları davam etdirmək üçün geniş seçimləri var və əməliyyatın müddəti xeyli uzadıla bilər: "Prezident məqsədlərimiz barədə çox aydın danışıb: İran nüvə silahına sahib ola bilməz. İranın nüvə proqramını, eləcə də qüvvələrimizi təhdid edən müxtəlif raketləri pozmaq üçün daha böyük imkanlarımız var". O, əlavə edib ki, ABŞ-ın "bir çox variantı var" və əməliyyat "bir az daha uzun" və ya "əhəmiyyətli dərəcədə uzun" çəkə bilər.

## Hörmüz boğazı açıqdırmı?

Hörmüz boğazı ilə bağlı da qeyri-müəyyənlik davam edir. Belə ki, İran tərəfi boğazın bağlı olduğunu bəyan edib. ABŞ Mərkəzi Komandanlığı isə Hörmüz boğazının mülki gəmiçilik üçün açıq olduğunu bildirib. Komandanlıq bildirib ki, İslam İnqilabı Keşikçiləri Korpusunun açıqlamasına baxmayaraq, Hörmüz boğazı bağlanmayıb. İran boğazda patrul xidməti göstərmir və hələlik orada minalanma aparıldığına dair heç bir əlamət yoxdur: "Onların neftinin səksən faizi Çinə gedir. Boğazda minalanma İrana və onun əsas müttəfiqinə zərər verərdi".

Pekin isə Hörmüz boğazının açıq saxlanmasını və neft, eləcə də mayeləşdirilmiş təbii qaz tədarüklərinə hücumlardan çəkinilməsini tələb edib. Bu barədə "Bloomberg" məlumat yayıb. Məlumatda bildirilir ki, Çin Körfəz ölkələrinin enerjisindən asılıdır, xüsusilə də Qətər qazına böyük ehtiyac duyur. Regional hücumlar tanker hərəkətinə mane olub və Qətərdə mayeləşdirilmiş təbii qaz istehsalını qısa müddətə dayandırıb. Bunun fonunda Çin rəsmiləri Tehranı qlobal və Çin bazarları üçün vacib olan enerji marşrutlarını hədəf almamağa çağırıb.

## İran ABŞ-ın gəmisini vurdu...

İran tərəfi ABŞ-a məxsus "USS Abraham Lincoln" təyyarədaşıyan gəmisinin raket zərbəsi ilə vurulduğunu iddia edib. İranın bəzi rəsmi və yarırəsmi mənbələrində gəminin ciddi ziyan gördüyü, hətta batırıldığı barədə məlumatlar yayılıb. Bu iddialar qısa müddətdə sosial şəbəkələrdə və regional media platformalarında geniş rezonans doğurub. Lakin ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) və Pentaqon yayılan xəbərləri dərhal təkzib edib. ABŞ hərbi qurumlarının açıqlamasında bildirilib ki, "USS Abraham Lincoln" heç bir zərbə almayıb, gəmi əməliyyat fəaliyyətini normal şəkildə davam etdirir və batırılması ilə bağlı məlumatlar həqiqəti əks etdirmir. ABŞ tərəfi raketlərin gəmi yaxınlığına belə düşmədiyini vurğulayıb.

## Ərdoğandan çağırış: Artan gərginlik vaxtında nəzarət altına alınmasa...

Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan ABŞ və İsrailin İranla mümkün hərbi qarşıdurması fonunda verdiyi sərt bəyanatla beynəlxalq ictimaiyyətə mühüm mesaj ünvanlayıb. Türkiyə prezidenti bildirib ki, Yaxın Şərqdə artan gərginlik vaxtında nəzarət altına alınmasa, bunun həm regional sabitlik, həm də qlobal təhlükəsizlik üçün ağır və uzunmüddətli nəticələri qaçılmaz olacaq. Dövlət başçısı çıxışında xüsusi olaraq vurğulayıb ki, davam edən qarşıdurma artıq təkcə hərbi risklərlə məhdudlaşmır. Onun sözlərinə görə, proses iqtisadi və geosiyasi qeyri-müəyyənliyi dərinləşdirir, enerji bazarlarında dalğalanmanı artırır və beynəlxalq təhlükəsizlik sistemini sarsıdır. Ərdoğan qeyd edib ki, böhran nəzarətdən çıxarsa, təsirləri bütün dünyaya yayılacaq və heç bir ölkə bu yükə uzun müddət tab gətirə bilməyəcək.

Türkiyə lideri çağırış edərək bildirib ki, alov daha da güclənmədən söndürülməli, münaqişənin genişlənməsinin qarşısı təcili şəkildə alınmalıdır. Onun fikrincə, diplomatik mexanizmlər işə salınmalı və tərəflər danışıqlar masasına qayıtmalıdır.

**P.İSMAYILOV**

**Bizim müsahib**

# Kamran M Yunis: Şeir bir ayədir, bir surədir, ilahi pıçıltıdır...

Bu dəfə həmsöhbətimiz - Kamran M Yunisdir. Onunla sənət yolu, təklik hissi, poeziyaya üz tutmasının səbəbləri və bu gün teatrla bağlı düşüncələri haqqında danışdıq. Söhbət zamanı ustadı Vaqif İbrahimoğlundan öyrəndikləri, teatrdan uzaqlaşsa da, sənətdən uzaq düşməməsi, müasir kino və ədəbiyyata baxışını da müzakirə etdik.

**- Kamran müəllim, necəsiniz?**

- Hər gün bir az da yaxşı olmağa çalışıram. Həyat çətin olsa da, yaşamaqdan başqa yolumuz yoxdur. Unutmamalıyıq ki, dünyanın ən böyük neməti insandır. Qarşımıza bizi anlayan, bizi duyan və bizimlə eyni yolda addımlayan bir insan çıxırsa, bu artıq taleyin bizə verdiyi ən gözəl yenilikdir.



**- Son vaxtlar daha çox poeziyaya üz tutmusunuz. Bu nə ilə bağlıdır?**

- Təkliklə. Yalnızlıqla.

**- Sənət baxımından, yoxsa şəxsi həyatınızla bağlı?**

- Hər ikisi. Təklik məni sıxır, amma bu təkliyi özüm seçmişəm. Bəzən insan qapısını özü bağlayır. Çünki açıq qapıdan içəri girən çox olur.

**- Sonuncu iş yeriniz Yuğ Teatrı oldu. Niyə ondan sonra başqa bir yerdə çalışmadınız?**

- Mən sənətin nə olduğunu müəllimim Vaqif İbrahimoğlundan öyrəndim. O məktəb başqa idi - nəfəsi, ruhu, yolu başqa idi. Müəllimimdən sonra o yolu kimsədə görmədim. Açığı, axtarmadım da. Bəlkə də maraqlı gəlmədi. Ustadım dünyasını dəyişəndən sonra məni teatrdan uzaqlaşdırdılar, amma sənətin özündən heç vaxt uzaqlaşmadım.

**- Bəlkə sənətdən küsdünüz?**

- Sənətdən küsmək mümkün deyil. Sənət ali bir məqamdır, ilahi bir dəryadır. İnsan bəzən insanlardan küsə bilər, amma sənətdən yox. 51 ildir çalışıram ki, insanların üzündə bir təbəssüm yaradım. Bəzən alınır, bəzən alınmır. Amma niyyət dəyişmir.

**- Bir tamaşaçı kimi teatra gedirsinizmi?**

- Elə bir dövrdə yaşayırıq ki, sənətlə məşğul olan adam artıq qəhrəman sayılır. Qəhrəmanlıq anlayışı indi çox dəyişib. Bəlkə də kimlərisə qəhrəman edən sosial şəbəkələrdir. Amma sosial şəbəkələr bizi yavaş-yavaş içimizdən yeyir. Ən dəhşətlisi odur ki, hamı bu haldan razıdır. Heç kim məhvə doğru getdiyini hiss etmir. 80-90-cı illərdə nalayiq sözlər, hərəkətlər gizlin qalardı. İndi isə açıq şəkildə nümayiş olunur və adiləşir...

**- Hazırda çəkilən filmlərdən razısınız?**

- İzlədiyim filmlər var. Amma izləmədiklərimə görə daha çox rahatam. Çox vaxt etikadan uzaq ifadələr, mədəniyyətimizə yaraşmayan səhnələr görürəm. Bu yaxınlarda qeyri etik ifadələrə görə bir serial dayandırıldı - söhbət "Səkkiz" filmindən gedir. Mən də izlədim. Çox dəyər verdiyim Hikmət Rəhimov mənim üçün daha da dəyər qazandı. Amma ümumilikdə Azərbaycanda kino demək olar ki, biznes səviyyəsində deyil. 100-150 minlə film çəkilməz. Film sənətdirsə, onun büdcəsi də sənətə yaraşmalıdır - ən azı 1-2 milyon.

**- Bəs istedad baxımından necə?**

- Həmişə demişəm: dünyanın ən istedadlı insanları Azərbaycanda doğulur. Hər kəs öz sahəsində peşəkardır. Alim alim kimi, sənətkar sənətkar kimi... Təəssüf ki, bəzən mənfi xüsusiyyətlər də eyni "peşəkarlıqla" yaşanır.

**- Bir müsahibənizdə sənətdən getmək istədiyinizi demişdiniz...**

- Bu fikir hələ də var. Çünki sənətə olan münasibəti sevmirəm. Uzun illərdir bu yoldayam, amma dəyər görmək çətindir. Heç bir teatrda çalışmaq istəmirəm. Vaxtilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrını dünya səviyyəli bir sənət məkanına çevirmək istəyirdilər, amma imkan vermədilər. Ölkəmizdə dünya səviyyəsində teatr yoxdur. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrını nəzərdə tutsanız, ora daha çox müəyyən bir təbəqənin məkanıdır.

**- Son günlər gənc xanım yazarların yaratdığı "Zərif Kölgələr" layihəsində sizi qonaq qismində görürük. Bu layihə ilə bağlı münasibətiniz necədir?**

- "Zərif Kölgələr" layihəsi müasir ədəbi mühit üçün dəyərli addımdır. Gənc xanım yazarların bir araya gəlib, belə gözəl işlər görməsi həm ədəbiyyatın inkişafına, həm də qadın sözünün daha aydın və cəsarətli şəkildə ifadəsinə xidmət edir.

Belə layihələr təkcə ədəbi müzakirə məkanı deyil, eyni zamanda, düşüncə və baxış müxtəlifliyinin formalaşdığı bir mühitdir.

**- Həm də qiraətlə məşğulsunuz. Şeir seçərkən nəyə diqqət edirsiniz?**

- Şeir mənim üçün başqa aləmdir. Şeir bir ayədir, bir surədir, ilahi pıçıltıdır. Orada bir yol göstərilməlidir, bir iz qoyulmalıdır. Sətirləri oxuyanda hiss etməlisən ki, Allah onu sənə pıçıldayır. Mən şeir seçəndə baxıram - bu nə qədər ilahidir?

Alimlər kəşf edir, şairlər onu dilə gətirir. Şəhriyar Delgəraninin şeirlərini çox sevirəm, amma insan kimi qəbul edə bilmirəm. Elçin Mirzəbəylinin şeirləri gözəldir, lakin siyasətini bəyənmirəm. Mən onlara şair kimi yanaşıram. Çünki şeir şairin Allahla söhbətidir. Mən o söhbəti oxuyuram.

**Söhbətləşdi:
Havar Şəfiyeva**

# Həyatı özünə işlədən adam

## Çarlz Dikkensin "Devid Kopperfild" romanı haqqında

**əvvəli ötən sayımızda**

Sonrakı dövrlərə bir ötəri nəzər salsaq, bu stilin Avropa, bütövlükdə Qərb, ardınca da bütün dünya nəsrinə necə böyük təsir göstərdiyini rahatca görə bilərik. Bizim ədəbiyyatımızda da bənzər layihə əsasında qurulmuş bədii mətnlər az deyil. Çox zaman biz daddığımız təamın, yazdığımız üslubun haradan gəldiyini, nə vaxt, kimin mətbəxində hazırlandığını, hansı ixtiraçının laboratoriyasında kəşf olunduğunu düşünmürük. Hətta bəzən yüz illər boyu kisəsindən yediyimiz azmanları bəyənmirik. Yazırıq, ancaq yazdığımız tərzin kimdən miras qaldığını bilmirik. Ya bilmirik, ya da bilmək istəmirik. Halbuki Çarlz Dikkensin ələlxüsus bu romanda ən yüksək səviyyədə ifadəsini tapmış ruhu, sənətkarlığı zamanında Qonçarov, Turgenev, Dostoyevski, Tolstoy, Tomas Mann, Sveyq, Coys, Kafka, Pasternak, Nabokov... kimi böyük söz ustalarını heyran qoymuşdu.

***

Devid dünyaya gələndə eynən İsa Məsih kimi onun da atası göylərdə olur - oğlan atasının ölümündən altı ay sonra doğulur. Mərhum atanın xalası miss Betsi Trotvud Devidin anası dar köynəkdən çıxmaqda olduğu vaxt həyəcandan özünə yer tapmayan ağırayaq dul gəlinin qapısını döyür.

Uğursuz nikahı miss Betsidə kişilərə dərin nifrət körüklədiyindən zavallı qadın illər öncə qızlıq soyadını özünə qaytarıb cəmiyyətdən uzaqda inzivaya çəkilib. Çox sevdiyi bacısı oğlu evlənmək qərarı verəndə miss Trotvud çar-naçar onu yad qızına güzəştə getməyə məcbur qalsa da, gəlinin görümünə yalnız bacoğlunun ölümündən yarım il sonra gəlir. Xanım Betsidə belə bir qənaət yaranır ki, gəlin mütləq qız doğacaq, o da körpənin xaç anası olacaq; sonra da qızcığazı Betsi Trotvud Kopperfild adlandırıb uşağın tərbiyəsini öz boynuna götürəcək. Fəqət zənnində yanıldığını, gəlinin oğlan doğduğunu biləndə miss Betsi məyus olub mərhum bacısı oğlunun evindən sağollaşıb-eləmədən biryolluq çıxıb gedir.

Devidin körpəliyi, uşaqlığının erkən çağı anasının, qulluqçu Peqqotinin sevgi, mərhəmət yağdırdığı nur dəryasında keçir. Anası yenidən ər sevdasına düşəndə vəziyyət dəyişir, sevgi mühitinə qorxu havası, zülm atmosferi calanır. Bal ayında ər-arvad Devidi dayəsiylə birgə Yarmuta, Peqqotinin qardaşıgilə göndərir. Orada Devid müdrik, təmkinli mister Peqqoti, onun saf, sadədil qardaşı oğlu Hem, qohumunun yetim qızı Emli ilə tanış olur, saf uşaq məhəbbətiylə Emliyə vurulur.

Yarmutdakı sevgi, səmimiyyət mühitindən ayrılıb evə qayıdanda Devid tamam yeni bir həyatın içinə düşür. Üzündən zəhrimar yağan atalığı mister Mardston evdə necə quru, qəddar atmosfer yaradıbsa, anası nəinki ərinin sözündən çıxmağa, balasını əzizləməyə belə qorxur. Az keçmiş atalığın özündən betər bacısı da onların ömrünə təpilir, evin daimi sakinlərindən birinə çevrilir, ailənin məişətinə, təlim-tərbiyəsinə nəzarəti öz üstünə götürür. Bundan sonra ana-balanın həyatı xalis cəhənnəmə dönür. Despotik davranışı, quru, yapışmaz xarakteri, qaranlıq təbiəti, riyakar xislətiylə bir-birindən seçilməyən bacı-qardaş Mardstonlar beyinlərini qapsamış şeytani vəsvəsələri ilahi məziyyət kimi, təkəbbürü, zalımlığı əxlaqi dəyər kimi qələmə verməyə çalışırlar.

***

Uşağa evdə dərs keçilir, di gəl, Mardstonların zəhmli, qəddar baxışları altında Devid suallara doğru-düzgün cavab verə bilmir, tez-tez dolaşır. Oğlanın yeganə təskinliyi atasından qalma kitablardır, bəxtindən həmin kitablar onun otağındadır. Dərsini pis oxuduğuna görə Devidi nahardan məhrum eləyirlər, müdam yetimin üzünü danlayırlar. İş o yerə çatır ki, atalığı onu qayışla döyür, bu vaxt özünü qorumağa çalışan Devid mister Mardstonun əlini möhkəm gəmirir. Buna görə onu cəzalandırıb yatılı məktəbə göndərirlər. Anası qorxusundan oğluyla soyuq vidalaşır, Peqqoti isə evdən bir az aralıda arabanı haqlayıb əziz Devisini bağrına basır, ona tutduğu payı ünvanına yetirir.

Məktəbdə zalım müdirin göstərişiylə Devidin kürəyindən üstünə bu sözlər yazılmış lövhə asılır: "Özünüzü gözləyin! İt kimi tutağandır!" Burada Devid özündən altı yaş böyük Ceyms Stirfordla, bir də Tommi Tredls adlı "çox şən, çox da talesiz" bir oğlanla dostlaşır. Stirford Devidi himayəsinə götürür - nəinki şagirdlərin, hətta onların valideynlərinin belə tük saldığı zəhmli müdirin Ceymsə dişi batmır. Devid axşamlar himayədarına oxuduğu kitabların məzmununu danışır.

Milad tətilində uşaqları evə buraxırlar. Artıq Devidin anası dünyaya bir oğlan da gətirib, ancaq qadın ölüm yatağındadır. Devidin ağlına gəlmir ki, bu, anasıyla sonuncu görüşüdür. Tezliklə qara xəbər məktəbdə ona özünü yetirir - anası körpəsini də əcəlinə büküb aparıb. Anasından sonra Devidi məktəbə buraxmırlar, atalığı onu başa salır ki, təhsil pul tələb eləyir, Devid kimisinin oxumağına maya qoymaqsa pulu havaya sovurmaqdır, indən belə oğlan başını özü girləməlidir. Uşaq taleyin ümidinə atıldığını bütün varlığıyla hiss eləyir. Artıq dayəsindən başqa Devidə canı yanan, onu ürəkdən sevən bir nəfər qalmayıb dünyada.

Mardstonlar vəfalı Peqqotinin də hesabını çəkib qadını küçəyə atırlar. Peqqoti Yarmuta, qardaşının yanına qayıdır, az keçmiş Devidi məktəbə aparıb-gətirən arabaçı Barkisə ərə gedir. Çətin sınaqlar qarşısında qalmış sevimli Devisini uzun ayrılıqdan qabaq Yarmuta qonaq çağıran Peqqoti qucağında bəsləyib böyütdüyü, ana kimi istədiyi yetirməsini ağır səfər üstündə bol sevgiylə, tükənməz şəfqətlə, ilahi məhəbbətlə yükləyir, həm də təkcə öz sevgisi, şəfqətiylə yox, Devidin ətrafında halay qurmuş bütün doğmalarının məhəbbətiylə. Bu, elə bir enerjidir ki, nəinki azalmır, tükənmir, tərsinə, işləndikcə, paylandıqca, dövriyyədə olduqca daha da artır, çoxalır. Nahaq yerə deməyiblər ki, dərdi bölərsən - azalar, sevinci (yəni əslində, sevgini) bölərsən - artar.

***

Beləliklə, atalığının təyinatı üzrə fabrikdə kölə əməyinə məhkum olunan Devid on yaşından sərbəst həyata qədəm qoyur. Tay-tuşları kimi bir qarnı ac, bir qarnı tox keçinsə də, ağır sarsıntılardan, dərin əzablardan keçsə də, oğlan ağlayıbsıtqamır, taleyindən gileylənmir. Devidi qorxudan tək budur: tanıdığı kimsəyə rast gəlməsin, onu indiki halında görməsinlər, vəssalam. Onun haqdan mayalanmış mömin qəlbində həyata, insanlara kin, nifrət baş qaldırmır.

Devid mister Mikober adlı qəribə adamın mənzilində kirayədə qalır. Mikober başı daşdan-daşa dəyən uğursuz xəyalpərəstdir, daim borc içində üzür, kreditorların mühasirəyə aldığı evinə arxa qapıdan girir, bununla belə nikbinliyi, həyata sevgisi azalmır, borc hesabına da olsa iştahla yeyib-içməyindən qalmır, həmişə də inanır ki, haçansa möcüzə baş verəcək, ergec bəxt üzünə güləcək. Ev yiyəsinin bu xasiyyətinə görə Devid onun ailəsinə asan qaynayıb-qarışır. Tez coşub tez soyuyan Mikober pulu qurtaranda belə ailəsinin boğazından kəsmir, evindəki əşyaları dəyər-dəyməzinə satıb süfrə açır, belə hedonistik əməliyyatların icrasında Devidin köməyindən də fəal şəkildə yararlanır. Ancaq bu nisyə rifah da uzun sürmür, günün birində Mikoberləri ailəlikcə borclular türməsinə basırlar.

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






## Ramazan ayı 14-cü günün duası

**"Allahummə la tuaxizni fihi bil-əsərat. Və əqilni fihi minəl-xətaya vəl-həfəvat. Və la təc-əlni fihi ğərəzən lil-bəlaya vəl-afat. Bi-izzətikə ya izzəl-muslimin".**

**Tərcüməsi:**

**"İlahi, bu gün səhvlərimə görə mənə qəzəblənmə! Bu gün xətalarıma göz yum! Məni bəla və afətlərə hədəf etmə! İzzətinə and verirəm, ey müsəlmanlara izzət verən Allah!"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti üzrə hazırlanmışdır**

# Sahibkarlıqdan sənayeləşməyə doğru...

## Liberal iqtisadiyyat və güclü dövlət modeli

İqtisadi inkişafın ən mühüm amillərindən biri azad sahibkarlığın və liberal iqtisadiyyatın mövcudluğudur. Hər iki anlayış iqtisadiyyatın təməlini təşkil edir və ölkələrin rifah səviyyəsini yüksəltməkdə əsas rol oynayır. Azad sahibkarlıq iqtisadi fəaliyyətin sərbəst aparılması və bazar iqtisadiyyatının prinsipial şəkildə təşviq edilməsidir. Liberal iqtisadiyyat isə bu prinsipləri dövlət səviyyəsində dəstəkləyən və bazar mexanizmlərinin sərbəst işləməsinə şərait yaradan sistemdir.

Azad sahibkarlıq iqtisadiyyatın dinamikliyini artırır, yeni iş yerlərinin yaranmasına səbəb olur və insanların iqtisadi azadlığını təmin edir. Sahibkarlar öz biznes ideyalarını həyata keçirərək həm özlərini, həm də cəmiyyətin rifahını artırırlar. Liberal iqtisadiyyat isə bazar iqtisadiyyatının səmərəliliyini təmin edən qanunvericilik və iqtisadi siyasəti formalaşdırır.

**Dövlət dəstəyi ilə böyüyən biznes**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən iqtisadçı Fuad İbrahimov bildirib ki, ötən illərdə dünyanın yüksək inkişaf etmiş ölkələrinin də üzləşdiyi iqtisadi böhran "İnkişafın Azərbaycan modeli"ni gündəmə gətirdi: "Prezident İlham Əliyevin böyük uzaqgörənliklə irəli sürdüyü iqtisadiyyatın şaxələndirilməsi konsepsiyası məhz bu modelin əsas elementlərindən olan davamlı iqtisadi inkişafa aparan amildir. Son illərin təcrübəsi iqtisadiyyatın şaxələndirilməsinin ən səmərəli yolu kimi sahibkarlığın inkişafını ön plana çıxarır. Sahibkarlığın inkişaf səviyyəsi iqtisadiyyatın şaxələnməsinə və təsərrüfat sisteminin bir sahədən asılılığının aradan qalxmasına zəmin yaradır. Ölkəmizdə azad sahibkarlığın təşviqi istiqamətində həyata keçirilən önəmli tədbirlərdən biri də Azərbaycanda sahibkarlara "investisiya təşviqi sənədi"nin verilməsidir. Bu sənəd ilə sahibkarlar müəyyən edilmiş vaxt ərzində bir sıra vergilərdən azad edilir və onların fəaliyyətinin genişlənməsi üçün müxtəlif güzəştlər tətbiq olunur. Bu addım son illər ölkəmizdə əlverişli biznes mühitinin yaradılması və azad iqtisadi fəaliyyətin təşviqi istiqamətində görülən işlərin sadəcə bir hissəsidir. Bununla yanaşı, sahibkarlıq subyektlərində lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi, sahibkarlara dövlət maliyyə dəstəyinin davam etdirilməsi, iş adamlarının şikayətlərinə daha həssas yanaşılması məqsədilə dövlət satınalmalarında şəffaflığın artırılması və ədalətli seçimin təmin olunması öz müsbət nəticələrini verməkdədir".

**Regional dəyər zənciri: Fürsətlər və perspektivlər**

F.İbrahimovun sözlərinə görə, Azərbaycanın nail olduğu davamlı inkişaf modeli heç bir dövlətin inkişaf yoluna bənzəməyən, mövcud təcrübələri təkrarlamayan milli inkişaf modelidir: "Belə bir konsepsiyanın daha hansı elementlərlə təkmilləşdirilməsi üzərində araşdırmalar aparılarkən müxtəlif yanaşmalar ortaya çıxır. Belə ki, "makro və mikro səviyyədə, eyni zamanda, sosial səviyyədə azad ticarətin təşviqi istiqamətində əlavə hansı tədbirlər görülə bilər?" sualı ətrafında bir sıra ideyalar maraq doğurur. İlk növbədə, regional dəyər zəncirində investisiyanın dəstəklənməsi və regionlararası ticarətin təşviqi iqtisadiyyatın müqayisəli üstünlüklərini meydana çıxara bilər. Bu, eyni zamanda, məhsulların regional paylanmasını və rentabelliliyi asanlaşdırar. Azad bazarın informasiya sistemi, uyğunlaşdırılmış regional ticarət siyasəti, regional bazarların əlçatımlılığı da bu sırada önəmli faktorlardır. Eyni zamanda, regional siyasətin hüquqi və tənzimləyici islahatlar yolu ilə tənzimlənməsi



yerli və xarici investorlara daha böyük bazarlara çıxmaq imkanı verə bilər. Bu istiqamətdə aidiyyəti qurumlar tərəfindən nəqliyyat xərclərinin azaldılması, region ərazisində gömrük rəsmiləşdirilməsi üçün standart sənədin hazırlanması kimi tədbirləri qeyd etmək olar. Eləcə də, texniki və peşə təhsilinə sərmayə yatırmaq işçi qüvvəsinin bacarıqlarının özəl sektorun tələblərinə uyğun təkmilləşdirilməsi baxımından vacib addımlardan biridir. Bu, ölkə iqtisadiyyatının daha çox ehtiyac duyduğu müxtəlif peşələr üzrə seminar və treninqlərin təşkili ilə də həyata keçirilə bilər".

**Rəqabətədavamlı sənaye üçün spesifik yanaşma**

Ekspert qeyd edib ki, investisiyanın təşviqi və ixracın inkişafı istiqamətində mövcud institutların imkanlarının genişləndirilməsi islahatların səmərəliliyini artıraraq özəl sektordakı gözlə görünməyən əngəlləri aradan qaldırmağa və yaradılmış imkanlardan geniş istifadəyə yol aça bilər: "Sənayedə hər sektora spesifik yanaşmanın olması sistematik dəyişikliklərə qarşı daha böyük dözümlülüyün mövcudluğuna gətirə bilər. Belə ki, hər bir istehsalat sahəsinin öz tələblərinə uyğun yanaşmanın tətbiqi məhsulun bazardakı rəqabət imkanlarına da böyük təsir göstərir. Bununla belə, sektorlar arasında bağlantıların olması da zəruridir. Sahibkarlıq proqramları yeni sektorların, xüsusilə xidmət sənayesində yeni istiqamətlərin formalaşmasına stimul yaradır. Bu baxımdan yeni biznes qurmaq istəyənlər üçün yaradıcı ideyaların əməli işə necə çevrilməsinin öyrədildiyi layihələrin icrası faydalı olar".

*Yeganə BAYRAMOVA*

# Artıq çəki, artan risklər...

## Piylənmə 21-ci əsrin ən böyük sağlamlıq problemidir

*Yeganə BAYRAMOVA*

Bu gün piylənmə artıq fərdi problem deyil, qlobal miqyasda sağlamlıq böhranına çevrilib. Bu problem metabolik-endokrinoloji xəstəlik olsa da, terapevt, kardioloq, nevroloq, psixiatr, qastroenteroloq, fizioterapevt və bir çox ixtisas həkimlərini maraqlandırır. Məhz artıq çəki insan orqanizmində müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Bədəndəki artıq kalori piyə çevrilərək, depo şəklində dərialtı qat, piylik, qarın divarı və daxili orqanlarda toplanır. Sadə dildə desək, piylənmə orqanizmdə artıq yağ toplanmasıdır.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) piylənməni XXI əsrin ən ciddi sağlamlıq problemlərindən biri kimi qiymətləndirir. Statistikaya görə, dünyada milyardlarla insan artıq çəki və ya piylənmədən əziyyət çəkir. Orta bədən kütləsinə malik kişilərdə piy toxuması 15-20, qadınlarda isə 25-30 faiz arasındadır.

Yeri gəlmişkən, martın 4-ü Ümumdünya Piylənmə ilə Mübarizə Günü kimi qeyd edilir. Hələ 1997-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) piylənməni qlobal xarakter alan bir epidemiya kimi qəbul edib. O vaxtdan başlayaraq həkimlər artıq çəki və piylənmə problemi haqqında əhalinin maariflənməsi sahəsində intensiv kampaniya aparır, piylənməyə aparan səbəblər və onun fəsadları haqqında məlumatlandırırlar.

**1975-ci ildən etibarən 3 dəfəyədək artıb...**

ÜST-ün apardığı tədqiqatlar göstərir ki, insanın bədən kütləsinin artması müxtəlif patalogiyaların inkişaf riskinin yüksəlməsinə səbəb olur. Ona görə də bu xəstəliyi istənilən yolla, hətta cərrahi müdaxilə yolu ilə də müalicə etmək önəmlidir. ÜST piylənməni "sağlamlıq üçün təhlükə yaradan həddindən artıq və ya anormal piy yığılması" olaraq təyin edir. Artıq çəki və piylənmə xəstəliyi bir çox metabolik, ürək-damar, ortopedik və psixiatrik pozğunluqlara səbəb ola bilər.




Təşkilatın verdiyi məlumata əsasən, 1975-ci ildən hazırkı vaxta qədər piylənmədən əziyyət çəkən xəstələrin sayı 3 dəfəyə qədər artıb. Ölkəmizdə kişilərin 50 faizi, qadınların isə 60 faizi artıq çəkidən əziyyət çəkir.

**Valideynlərin doğru bildiyi yanlış!**

Mövzu barədə "Yeni Azərbaycan"a danışan dietoloq Şəfa Yadigarova piylənmənin 2-ci tip diabet, ürək xəstəlikləri və bəzi xərçəng növlərinə səbəb ola biləcəyini diqqətə çatdırıb. Dietoloq qeyd edib ki, körpə uşaqların valideynləri həddən artıq çəki probleminə görə, həkimlərə tez-tez müraciət edirlər: "Belə müraciətlərin sayı artıb. Valideynlərdə belə bir fikir formalaşıb ki, uşağı yaxşı yedizdirmək lazımdır ki, o sağlam olsun. Bu, çox yanlış yanaşmadır. Əgər valideynlər övladlarının gələcəyini düşünürlərsə, onları körpəlikdən düzgün qidalanmağa öyrətməlidirlər və rejimlə qidalandırmalıdırlar".

**Oturaq həyat tərzi**

Araşdırmalara görə, işləyən insanlar gün ərzində təxminən 8, həftədə 40, ildə isə 2 min saatını masa arxasında çalışaraq keçirir. Ofisdə istehlak edilən düzgün olmayan qida rejimi isə piylənmə riskini daha da artırır. Mütəxəssisin sözlərinə görə fiziki fəaliyyət sağlam çəki saxlamağa kömək edir və bu da öz növbəsində immunitet sisteminin ən yaxşı şəkildə işləməsinə imkan verir. Həddindən artıq çəki və oturaq həyat tərzi isə orqanizmi bu müdafiə mexanizmindən məhrum edir - immun hüceyrələr xərçəng hüceyrələrini daha az tanıyır və onları məhvə sürükləyir.

**Oğlanlarda qadın hormonunu artırır...**

Dietoloqun sözlərinə görə, yeniyetməlik çağında baş verən piylənmə həm oğlan, həm də qızlarda böyük problemlər yaradır: "Gənc qızların ana olmaq şansı azalır, oğlanlarda isə bütün funksiyalar pozulur və onlarda qadın hormonu daha aktiv olur. Kökəlmə, eyni zamanda, yeniyetmənin görkəminə təsir edir, daxili orqanları piylənir".

# Azercell-in "Oflayn qadınlar" layihəsi beynəlxalq mükafata layiq görülüb




Azercell-in qadınlara qarşı zorakılıqla mübarizə istiqamətində həyata keçirdiyi "Oflayn qadınlar" sosial təşəbbüsü beynəlxalq səviyyədə qiymətləndirilib. Layihə Londonda keçirilən "The Indie Awards 2026" mükafatlandırma mərasimində "İctimai Rifah" (Public Good Award) kateqoriyasında gümüş mükafata layiq görülüb.

Münsiflər heyəti təşəbbüsü yalnız yaradıcı konsepsiyasına görə deyil, eyni zamanda cəmiyyət üçün yaratdığı real və ölçülə bilən sosial təsirə görə də yüksək dəyərləndirib. Layihə rəqəmsal həllərin aktual sosial problemlərin həllində effektiv rol oynaya biləcəyini nümayiş etdirir.

Təşəbbüsün əsas məqsədi zorakılığa məruz qalan və ya risk altında olan qadınlar üçün təhlükəsiz, əlçatan və etibarlı informasiya mühiti formalaşdırmaqdır. oflaynqadinlar.az platforması istifadəçilərə psixoloji, fiziki və iqtisadi zorakılıq hallarında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun atılmalı addımlar barədə sistemli və aydın məlumat təqdim edir. Platformada hüquqi prosedurlar, psixoloji və sosial dəstək imkanları, maarifləndirici materiallar, eləcə də yardım göstərə biləcək dövlət və qeyri-hökumət qurumları barədə təsdiqlənmiş informasiya yer alır.

Layihənin mühüm üstünlüklərindən biri - onun maksimum əlçatanlıq prinsipi əsasında qurulmasıdır. Azercell abunəçiləri platformadan internet paketi və ya balansda vəsait olmadan da istifadə edə bilirlər.

Təşəbbüs 25 noyabr - Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Günü münasibətilə, BMT-nin "Narıncı Gün" təşəbbüsü çərçivəsində ictimaiyyətə təqdim olunub.

Xatırladaq ki, fərdi dəstəyə ehtiyac yarandığı halda qadınlar Azercell-in dəstəyi ilə fəaliyyət göstərən "Qadın Dəstək Xətti"nə 116111 qısa nömrəsi vasitəsilə müraciət edə bilərlər. Azercell abunəçiləri üçün bu nömrəyə zənglər ödənişsizdir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4925**
**Sifariş: 325**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova